ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 32 (1514) ❖ Cümə, 30 oktyabr 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



Bakıda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib

Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib

Oktyabrın 27-də Bakıda ”Ortaq gələcək naminə dialoq” mövzusunda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı Forumun açılış mərasimində çıxış edib.

Forumun iştirakçılarını salamlayan Prezident İlham Əliyev ötən 15 il ərzində Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun mədəniyyətlərarası münasibətləri və digər əlaqədar məsələləri həll etmək üçün olduqca səmərəli və əhatəli platformalardan birinə çevrildiyini deyib.

Azərbaycanın təşəbbüsü ilə hələ 2011-ci ildə təşkil olunmuş ilk forumu xatırladığını qeyd edən Prezident İlham Əliyev bu təşəbbüsə dəstək vermiş, həmçinin bu illər ərzində bizimlə olmuş tərəfdaşlarımıza və ilk növbədə, BMT-nin Sivilizasiyalar Alyansına dərin minnətdarlığını bildirib.

”Əsrlər boyu Azərbaycan Asiya ilə Avropa arasında mədəniyyət körpüsü olub. Multikulturalizm ənənələri, dini və etnik dözümlülük xalqımızın əsrlər boyu yaşatdığı meyarlar olub və biz onları yüksək dəyərləndiririk. Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri isə cəmiyyətimizdəki ahəngdarlıqdır. Bütün etnik qrupların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq, nəinki bərabər hüquqları var, onlar, həmçinin bir ailə kimi yaşayırlar. Biz həmrəylik, qarşılıqlı hörmət və anlaşmanın ən yüksək səviyyəsini həqiqətən hiss edirik. Hamımız milli ideyalar ətrafında birləşirik. Onlardan biri azərbaycançılıqdır. O, Azərbaycandakı bütün xalqları bir araya gətirir”, - deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, bu birlik müstəqillik tariximizin ən ağır vaxtlarında özünü göstərib. Ermənistanın hərbi təcavüzü və işğalı, həmçinin İkinci Qarabağ müharibəsi zamanı bütün etnik və dini qrupların nümayəndələri özünəməxsusluğumuzu qorumaq, ədaləti müdafiə etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün Qələbəmizin rəmzi olan ”Dəmir yumruq” kimi vuruşublar.

Dövlətimizin başçısı bu gün Azərbaycan cəmiyyətinin bütün məsələlərdə birlik nümayiş etdirdiyini söyləyib: ”Azərbaycanda hər hansı daxili risklərimiz yoxdur. Bütün potensial risklər hüdudlarımızın kənarından gəlir. İdeoloji risklər isə fiziki risklər qədər təhlükəlidir. Buna görə biz hər zaman ayıq-sayıq olmalıyıq, özünəməxsusluğumuzun, dövlətçiliyimizin, müstəqilliyimizin və həyat tərzimizin qorunmasına çox sadiq olmalıyıq. Müstəqilliyin bu 35 ili ərzində ölkədə fərqli dövrlər olub, lakin biz hər zaman inanmışıq ki, öz məqsədlərimizə nail olacağıq. Həmin illərin əksər hissəsində əsas məqsədimiz ərazi bütövlüyümüzün bərpası, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsi olub”.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan 30 illik işğala son qoyaraq ədaləti, beynəlxalq hüququ, ərazi bütövlüyünü və suverenliyini bərpa edib, BMT Təhlükəsizlik Şurasının icra olunmayan qətnamələrini özü həyata keçirib. Azərbaycan Qələbədən sonra qisas yolunu seçməyərək Ermənistanla sülh təşəbbüsü ilə çıxış edib və bununla davamlı sülhə nail olmaq iradəsini nümayiş etdirib: ”Hesab edirəm ki, hazırda müharibə aparan və yəqin ki, ona necə son qoyacaqlarını bilməyən tərəflər bu təcrübəni öyrənməlidirlər. Fikrimcə, yaratdığımız presedentlərdən hansılarının bəzi münaqişələrin həllində istifadə oluna biləcəyini müəyyənləşdirmək baxımından təcrübəmiz çox dəyərli olacaqdır. Bəli, doğrudur, bütün münaqişələr bir-birindən fərqlənir. Lakin onların hamısının kökündə eyni amillər dayanır. Bunlar ambisiyalar, təcavüz və üstünlük hissidir. Bu, həm də hücum etdiyin insanlara qarşı törətdiyin əməllərə görə cəzalandırılmayacağına əminlik hissidir. Təəssüf ki, bəzən bu vəziyyət sonsuza qədər davam edir. Bizim vəziyyətimizdə bu, 30 il sürdü, lakin biz buna son qoyduq. Qeyd etdiyim kimi, hər şeyi beynəlxalq hüquqa uyğun şəkildə etdik”.

Dövlətimizin başçısı beynəlxalq təşkilatların, xüsusilə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların icra mexanizminin təkmilləşdirilməsinin vacibliyini vurğulayıb. Ermənistanın Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamasına baxmayaraq, ona qarşı heç bir sanksiyanın tətbiq olunmamasını ikili standart adlandırıb. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan beynəlxalq siyasətdə ikili standartlara qarşı mübarizəni bundan sonra da davam etdirəcək, eyni zamanda dövlətlərin suverenliyinə hörmət edilməsini və heç bir ölkənin digərinə öz iradəsini diktə etməməsini vacib sayır. Bu mənada, qarşılıqlı hörmət, bərabərhüquqlu münasibətlər və dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri beynəlxalq münaqişələrin azalmasına və əməkdaşlığın genişlənməsinə töhfə verə bilər.

Dövlətimizin başçısı Azərbaycanın son 35 ildə əldə etdiyi nailiyyətlərin xalqın öz zəhməti hesabına qazanıldığını, ölkənin dağıntılardan və yoxsulluqdan tərəqqiyə, inkişafa yüksəldiyini diqqətə çatdırıb. Azərbaycanın müstəqil xarici siyasətinin, iqtisadi inkişafının, qlobal enerji və nəqliyyat sahələrində artan rolunun ölkənin beynəlxalq nüfuzunu gücləndirdiyini və qeyri-sabit regionda sabitlik amilinə çevrildiyini vurğulayıb.

”Beynəlxalq təmaslarımız onu göstərir ki, biz həqiqətən də özümüzü beynəlxalq birliyin etibarlı və hörmətli bir üzvü kimi təqdim edə bilmişik. Bizim artıq iki supergüclə strateji tərəfdaşlıq münasibətlərimiz var. 2025-ci ildə Azərbaycan və Çin arasında hərtərəfli strateji tərəfdaşlıq Bəyannaməsi imzalanmışdır. Çinlə bəyannamə aprel ayında imzalanmışdır, eyni zamanda, 2025-ci ilin avqustunda Amerika Birləşmiş Ştatları ilə Strateji Xartiya imzalanmışdır. Beləliklə Azərbaycanın iki supergüclə strateji tərəfdaşlıq formatı var. Avropa İttifaqının 10 üzv dövləti ilə bizim strateji tərəfdaşlıq bəyannaməmiz və ya sazişimiz var”,- deyə Prezident İlham Əliyev vurğulayıb.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan gələn il 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşünə ev sahibliyi və sədrlik edəcək. Bundan əlavə, Azərbaycan 2028-ci ildə Avropa Siyasi Birliyinin Zirvə Görüşünə də ev sahibliyi edəcək. Qeyd edib ki, bir ölkədə bu iki mötəbər qlobal tədbirin keçiriləcəyi qərarı bizə göstərilən hörməti nümayiş etdirir və bir daha bunun aparıcı qüvvəsi müzakirə etdiyimiz mövzudur: mədəniyyətlərarası dialoq.

Prezident İlham Əliyev Azərbaycanın müharibələrin başa çatdırılması sahəsində təcrübəsinin, iqtisadi potensialının, aşağı xarici borcunun, enerji təchizatında və beynəlxalq nəqliyyat bağlantılarında artan rolunun ölkənin strateji əhəmiyyətini gücləndirdiyini bildirib. Fəal xarici siyasətin, multikulturalizm ənənələrinin və mədəniyyətlərarası dialoqun Azərbaycanın gələcəyə nikbin baxmasına əsas yaratdığını, bununla belə, dünyada artan qeyri-sabitlik fonunda potensial risklərə qarşı daim diqqətli olmağın vacibliyini vurğulayıb. Dövlətimizin başçısı 2024-cü ildən bəri qlobal gündəmdə baş verən dəyişikliklərə toxunaraq, yeni müharibələri mənfi, Ermənistanla sülh prosesində əldə olunan irəliləyişi isə müsbət hadisə kimi qiymətləndirib. Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında sülh sazişi layihəsinin paraflanmasını və üçtərəfli Bəyannamənin imzalanmasını regionda yeni siyasi reallığın mühüm göstəricisi kimi dəyərləndirib. Dövlət başçısı çıxışının sonunda forum iştirakçılarına təşəkkür edərək tədbirə uğurlar arzulayıb.

Daha sonar tədbir çıxışlarla davam edib.

VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun oktyabrın 28-də Heydər Əliyev Mərkəzində bağlanış mərasimi və konsert proqramı təşkil olunub.

Parçalanmış dünyada humanitar elmlərin missiyası

AMEA-da Akademik Forum





Oktyabrın 27-də Azərbaycan Milli Elmlər Akademiyasında VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində UNESCO-nun Dinlərarası Dialoq və Mədəniyyətlərarası Anlaşma üzrə UNITWIN Şəbəkəsinin Akademik Forumunun açılışı baş tutub.

"Parçalanmış dünyada humanitar elmlərin missiyası" mövzusunda keçirilən Akademik Forumun açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət nazirinin müavini Səadət Yusifova, Avstraliyanın Deakin Universitetinin Mədəni Müxtəliflik və Sosial Ədalət üzrə UNESCO kafedrasının rəhbəri professor Fateh Mansouri, Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasının prezidenti professor Ahmet Nuri Yurdusev, UNESCO-nun mədəniyyətlərarası dialoq üzrə mütəxəssisi Bram Van Haver, o cümlədən millət vəkilləri, ictimaiyyət nümayəndələri, AMEA-nın Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların əməkdaşları və aidiyyəti şəxslər iştirak ediblər.

Forumu giriş nitqi ilə açan **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** çıxışında Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfələrdən, ölkəmizin multikulturalizm təcrübəsindən və qlobal həmrəyliyin təmin olunmasında dialoqun vacibliyindən danışıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulan Bakı Prosesinin 2011-ci ildən etibarən beynəlxalq forumlar vasitəsilə davam etdirildiyini deyən akademik İsa Həbibbəyli bu il Mədəniyyətlərarası Dialoq Forumunun 15 illiyinin tamam olduğunu, Azərbaycanın ötən müddət ərzində dünyada mədəniyyətlərarası dialoqun inkişafına mühüm töhfələr verdiyini söyləyib.

Qeyd edib ki, bu gün VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər müasir dövrdə mədəniyyətlərarası dialoqun, eləcə də beynəlxalq münasibətlərdə qarşılıqlı anlaşmanın əhəmiyyətini bir daha önə çıxardı: "Cənab Prezidentin nitqində mədəniyyətlərarası dialoqun beynəlxalq miqyasda hər iki tərəflərin bərabərhüquqlu təmsil olunması, ikili standartlara yol verilməməsi, hətta ikili standartların beynəlxalq siyasətdən çıxarılması haqqında çox qiymətli və yeni dünya üçün yeni olan əhəmiyyətli fikirlər irəli sürüldü. Ölkəmiz artıq yeddinci dəfədir ki, Mədəniyyətlərarası Dialoq Forumuna təkcə mükəmməl ev sahibliyi eləməklə öz işini bitmiş hesab eləmir. Eyni zamanda mədəniyyətlərarası dialoqun Azərbaycan modelini və təcrübəsini bu tədbirlər vasitəsilə dünyaya yayır".

AMEA rəhbəri bildirib ki, Forum həm də dünya təcrübəsinin öyrənilməsi, müxtəlif ölkələrin nümayəndələri, alimlər, mədəniyyət və ədəbiyyat xadimləri arasında fikir mübadiləsinin aparılması baxımından mühüm platformadır. Akademik İsa Həbibbəyli vurğulayıb ki, tədbir çərçivəsində keçirilən müzakirələr müasir dünyanın daha dərindən dərk edilməsinə, qarşılıqlı anlaşmanın gücləndirilməsinə və qlobal həmrəyliyin təşviqinə töhfə verəcək.

"Azərbaycan bu il "Ortaq gələcək naminə dialoq" mövzusunda bütün dünyanı düşündürən problemlə çıxış edir. Bu gün çox təəssüf ki, dünyada müharibələr, qarşıdurmalar, çəkişmələr, qütbləşmələr dərinləşməyə, genişlənməyə davam edir. Azərbaycan Prezidenti İlham Əliyev məhz dünyanı parçalanmaqdan xilas etməyin yolunu qarşılıqlı etimadda, mədəniyyətlərarası, dinlərarası dialoqda görür və doğrudan da Azərbaycan modeli bu baxışın isbatıdır", - deyə AMEA rəhbəri diqqətə çatdırıb.

Elmin də bu prosesdə mühüm rol oynadığını deyən AMEA rəhbəri vurğulayıb ki, elmi əməkdaşlıq mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına, ortaq dəyərlərin müəyyənləşdirilməsinə, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir.

Akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycan Milli Elmlər Akademiyası və alimlərimiz bu missiyanın məsuliyyətini dərk edir və bu sahədə ölkəmizdə aparılan dövlət siyasətinə, dünyada gedən proseslərin elmi şəkildə dəyərləndirilməsinə özünün töhfəsini verəcəkdir.

Tədbirdə **Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanov** çıxış edərək müasir dünyada etnik və dini münaqişələrin, terrorizmin və zorakılığın mədəniyyətlərarası dialoqun inkişafına ciddi maneələr yaratdığını bildirib. O, belə bir şəraitdə qarşılıqlı anlaşmanın, etimadın, əməkdaşlığın və davamlı sülhün təmin olunmasında elm və təhsilin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

"Təhsil yalnız bilik ötürmək deyil, həm də müstəqil və tənqidi düşünmək, məlumatları təhlil etmək, fərqli mövqeləri qiymətləndirmək və əməkdaşlıq etmək bacarıqlarını formalaşdırmaq məqsədi daşıyır", - deyə Firudin Qurbanov qeyd edib. Nazir müavininin sözlərinə görə, məlumatsızlıq, tarixi və dini faktların manipulyasiyası münaqişələrin yaranmasına zəmin yaradan amillərdəndir. Elm və təhsilə əsaslanan mədəniyyətlərarası və dinlərarası dialoq isə qlobal gərginliyin azaldılması və davamlı sülhün qurulması üçün mühüm vasitədir.

Azərbaycanın təhsil siyasətinin prioritetlərindən danışan Firudin Qurbanov insan potensialının inkişafı, müasir bacarıqların formalaşdırılması və təhsil sisteminin rəqəmsal transformasiyasının bu siyasətin əsas istiqamətləri olduğunu söyləyib. Hazırda ölkənin təhsil müəssisələrində 2 milyondan çox təhsilalanın və 150 minə yaxın təhsilverənin olduğunu bildirən nazir müavini bu göstəricilərin təhsilin cəmiyyətin dəyərlərinin və düşüncə tərzinin formalaşmasındakı əhəmiyyətini nümayiş etdirdiyini diqqətə çatdırıb.

O, Azərbaycanın tarixən müxtəlif etnik və dini qrupların dinc yaşadığı məkan olduğunu vurğulayaraq, ölkəmizdə milli azlıqların mədəni irsinin və ana dilinin qorunması üçün müvafiq imkanların yaradıldığını bildirib. Həmçinin dünyanın bir sıra ölkələrinin ali təhsil müəssisələrində "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədrisinin ölkəmizin təcrübəsinin beynəlxalq səviyyədə öyrənilməsinə və müxtəlif multikulturalizm modellərinin müqayisəli təhlilinə şərait yaratdığını qeyd edib.

Firudin Qurbanov çıxışında rəqəmsal texnologiyaların və süni intellektin mədəniyyətlərarası dialoqa təsirinə də toxunub. Bildirib ki, sosial şəbəkələr, mesajlaşma platformaları və süni intellekt qlobal ünsiyyətin xarakterini dəyişdirərək müxtəlif mədəniyyətlərin təmsilçiləri arasında əlaqələr üçün yeni imkanlar yaradır. Bu proseslərin öyrənilməsi mədəni, sosial və texnoloji yanaşmaların əlaqəli şəkildə araşdırılmasını tələb edir.

Dünyada müharibələrin və geosiyasi qarşıdurmaların davam etdiyi bir dövrdə Bakıda keçirilən VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini vurğulayan Firudin Qurbanov gələcək nəsillər naminə sülhə, dialoqa, milli və bəşəri həmrəyliyə çağırışların xüsusi aktuallığa malik olduğunu bildirib. O, dini ayrıseçkilik və qarşıdurma əvəzinə qarşılıqlı hörmət, humanizm və sevgi prinsiplərinin təşviqinin vacibliyini qeyd edib.

Sonra çıxış edən **Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifova** hazırda dünyada qütbləşmə, münaqişələr və qarşılıqlı etimad böhranının artdığı bir şəraitdə mədəniyyətlərarası dialoqun əhəmiyyətini qeyd edib. Vurğulayıb ki, dialoqun inkişafı üçün siyasi və diplomatik təşəbbüslərlə yanaşı, elmi tədqiqatlara da xüsusi önəm verilməlidir. O, humanitar və sosial elmlərin cəmiyyətlərarası münasibətlərin öyrənilməsinə, stereotiplərin aradan qaldırılmasına və sosial etimadın möhkəmləndirilməsinə mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Səadət Yusifova Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində beynəlxalq təşəbbüslərinə toxunaraq, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulan "Bakı Prosesi"nin (Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu) müxtəlif ölkələri, beynəlxalq təşkilatları və elmi ictimaiyyəti qarşılıqlı anlaşma və əməkdaşlıq ətrafında birləşdirən mühüm platforma olduğunu söyləyib. O, "Bakı Prosesi"nin təcrübəsinin akademik müstəvidə daha sistemli şəkildə araşdırılması, nəticələrinin elmi əsaslarla qiymətləndirilməsi və beynəlxalq tədqiqatlarda geniş işıqlandırılmasının vacibliyinə diqqət çəkib.

Çıxışında rəqəmsal transformasiya proseslərinin mədəniyyətlərarası dialoq üçün yaratdığı imkanlar və çağırışları da qeyd edən Səadət Yusifova bildirib ki, texnologiyalar mədəni irsin qorunmasına və biliklərin yayılmasına xidmət etməli, eyni zamanda az təmsil olunan dillərin və mədəniyyətlərin rəqəmsal mühitdə görünürlüyünün artırılmasına dəstək verməlidir. O, bu istiqamətdə universitetlərin, tədqiqatçıların və dövlət qurumlarının əməkdaşlığının vacibliyini qeyd edib.

Azərbaycanın UNESCO ilə tərəfdaşlığına toxunan nazir müavini UNESCO-UNITWIN Şəbəkəsinin beynəlxalq elmi əməkdaşlığın, bilik mübadiləsinin və birgə tədqiqatların genişləndirilməsi üçün mühüm imkanlar yaratdığını bildirib. Onun sözlərinə görə, mədəniyyətlərarası və dinlərarası dialoq, mədəni müxtəlifliyin qorunması və dialoq siyasətinin səmərəliliyinin qiymətləndirilməsi istiqamətində yeni elmi əməkdaşlıq modellərinin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır.

Səadət Yusifova çıxışının sonunda Forumun nəticələrinin konkret təşəbbüslərə, birgə tədqiqatlara və yeni tərəfdaşlıqlara çevriləcəyinə, elmi müzakirələrin dövlət siyasətində və təhsil proqramlarında əksini taparaq cəmiyyətin davamlı inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib, tədbirin işinə uğurlar arzulayıb.

Sonra çıxış edən **Avstraliyanın Deakin Universitetinin Mədəni Müxtəliflik və Sosial Ədalət üzrə UNESCO kafedrasının rəhbəri professor Fateh Mansouri** qeyd edib ki, parçalanmış dünyada ortaq gələcəyin qurulması üçün mədəniyyətlərarası dialoqun rolu böyükdür və bu mənada Azərbaycanın təşkil etdiyi VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu xüsusi əhəmiyyət daşıyır. Professor Fateh Mansouri Azərbaycana beşinci səfərindən məmnunluğunu ifadə edərək ölkəmizin qonaqpərvərliyini və forumun yüksək səviyyədə təşkilini xüsusi vurğulayıb.

Fateh Mansourinin sözlərinə görə, xarici münaqişələr cəmiyyətlər daxilində münasibətlərə təsir göstərir, miqrasiya, din və kimliklə bağlı müzakirələr isə insanların digər cəmiyyətlərə münasibətini formalaşdırır. Bu baxımdan, mədəniyyətlərarası dialoq yalnız fikir mübadiləsi deyil, həm də cəmiyyətləri parçalayan səbəblərin tənqidi təhlili üçün mühüm platformadır. Professor vurğulayıb ki, effektiv mədəniyyətlərarası yanaşma mədəni müxtəlifliyə hörməti bərabər hüquqlar və cəmiyyətin həyatında mənalı iştirakla birləşdirməlidir.

Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının prezidenti professor Əhməd Nuri Yurdusev çıxışında mədəniyyətlərarası dialoqun qurulması və davamlılığının təmin edilməsinin əsas şərtlərinə toxunub. Vurğulayıb ki, dialoqun uğurlu olması ilk növbədə mədəniyyətlər və cəmiyyətlərin bir-birini tanımasından, bərabərhüquqlu olduqlarını qəbul etməsindən asılıdır. Professor Əhməd Nuri Yurdusev qarşılıqlı anlaşmanın təməlində bərabərliyin tanınmasının dayandığını bildirib.

Alim qeyd edib ki, qarşılıqlı tanıma ilə yanaşı, mədəniyyətlərə və cəmiyyətlərə hörmətlə yanaşılması da mühüm əhəmiyyət daşıyır. "Həm cəmiyyətlərin daxilində, həm də onlar arasında zorakılığın minimuma endirilməsi dialoqun qorunması və inkişafı üçün vacib şərtlərdəndir", - deyə Assosiasiya prezidenti vurğulayıb. Zorakılığın qarşılıqlı anlaşma və dialoq mühitinə xələl gətirdiyini vurğulayan professor Əhməd Nuri Yurdusev mədəniyyətlərarası dialoqun davamlılığının qarşılıqlı tanıma, bərabərliyə əsaslanan münasibət, hörmət və zorakılığın minimuma endirilməsi prinsiplərindən asılı olduğunu diqqətə çatdırıb.

Sonra çıxış edən **UNESCO-nun mədəniyyətlərarası dialoq üzrə mütəxəssisi Bram Van Haver** qeyd edib ki, müasir dövrdə mədəniyyətlərarası dialoq miqrasiya, ictimai qütbləşmə və rəqəmsal platformalarda yayılan dezinformasiya kimi çağırışlar fonunda cəmiyyətləri bir arada saxlamaq və institutlara etimadı bərpa etmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Bram Van Haver akademik forumun elmi araşdırmalarla praktiki siyasət arasında əlaqənin gücləndirilməsinə töhfə verdiyini bildirib. Onun sözlərinə görə, fəlsəfə, din, tarix və dilçilik kimi sahələrdə aparılan tədqiqatlar təhsil siyasəti, rəqəmsal transformasiya və dini müxtəlifliyin idarə olunması məsələlərinin daha dərindən öyrənilməsi üçün vacibdir. O, VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun bu baxımdan alimləri, dövlət nümayəndələrini və beynəlxalq təşkilatları bir araya gətirən əhəmiyyətli platforma olduğunu qeyd edib.

Açılış mərasimindən sonra Forum öz işini "Mədəniyyətlərarası anlaşma və humanitar elmlərin missiyası" mövzusunda panel iclası ilə davam etdirib.

Paneli giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açıb.

Tədbir **tarix elmləri doktoru Eynulla Mədətli** və Britaniyalı tanınmış politoloq, **jurnalist Neil Watsonun** moderatorluğu ilə davam edib.

Panel iclasda **AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun İslam fəlsəfəsi şöbəsinin müdiri AMEA-nın müxbir üzvü Könül Bünyadzadənin** "Sufi fenomenologiyası: mədəniyyətlərarası dialoqa yeni fəlsəfi baxış", **Türkiyənin Egey Universitetinin əməkdaşı Dr. Yılmaz Özkayanın** "Türk Dünyası Modernləşməsinde Kültürlerarası Diyalog: Ceditçilik Tecrübesi (1883-1918)", **AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru professor İlham Məmmədzadənin** "Şüur, süni intellekt və multikulturalizm", **AMEA Folklor İnstitutunun direktoru filologiya elmləri doktoru Hikmət Quliyevin** "Mədəniyyətlərarası dialoqda folklor: kollektiv yaddaşdan rəqəmsal körpülərə", **Albaniya Elmlər Akademiyasının Sosial Elmlər və Albanologiya Bölməsinin sədri akademik Gezim Hoxhanın** "Humanitar elmlər vasitəsilə körpülərin qurulması: müxtəliflikdən anlaşmaya, əməkdaşlığa və davamlı sülhə doğru" mövzusunda məruzələri dinlənilib.

Bundan əlavə, **AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri fəlsəfə elmləri doktoru Füzuli Qurbanov** "Turan Platforması mədəniyyətlərarası dialoq məkanı kimi", **AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin böyük elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Arzu İsgəndərzadə** "Qloballaşan dünyada mədəniyyətlərarası dialoq kontekstində dilin qorunması" və **AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Etika şöbəsinin aparıcı elmi işçisi fəlsəfə üzrə fəlsəfə doktoru Samirə Dadaşova** "Süni intellekt və epistemik ədalət: tarixi yaddaşın diversifikasiyası və mədəni hüquqlar" mövzusunda məruzələrlə çıxış ediblər.

2026-cı ilin Nobel mükafatı və laureatları: dünya elminin prioritetləri və Azərbaycan elminin vəzifələri

AMEA Rəyasət Heyətinin iclasında

Oktyabrın 22-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.



Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, eləcə də AMEA-nın Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə AMEA-nın müxbir üzvü İsmayıl İsmayılova AMEA-nın Fəxri fərmanı təqdim olunub.

İclasda müzakirəyə çıxarılan ilk məsələ "2026-cı ilin Nobel mükafatı və laureatları: dünya elminin prioritetləri və Azərbaycan elminin vəzifələri" haqqında olub.

Məsələ ilə bağlı çıxış edən **akademik İsa Həbibbəyli** bildirib ki, Nobel mükafatlarına həsr olunan elmi məruzələr cəmiyyətin maarifləndirilməsi ilə yanaşı, Azərbaycan elminin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Akademiyada Nobel mükafatları mövzusuna həsr olunan tədbirlərin keçirilməsi artıq ənənə halını alıb və təqdim edilən məruzələr Nobel mükafatları haqqında məlumat verməklə kifayətlənmir, eyni zamanda müasir dünya elminin hansı istiqamətlərdə inkişaf etdiyini görməyə və elmimizin gələcək prioritetlərini bu meyillər əsasında müəyyənləşdirməyə töhfə verir.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, bu cür müzakirələr alimlərə öz tədqiqat sahələrinin inkişaf perspektivlərini müəyyənləşdirmək, beynəlxalq elmi təcrübədən yararlanmaq və yeni yanaşmaları araşdırmaq imkanı verir.

AMEA prezidenti dünya şöhrətli alim, Nobel mükafatı laureatı və Akademiyanın fəxri üzvü Əziz Səncərin elmi baxışların zənginləşdirilməsindəki rolunu yüksək qiymətləndirib. AMEA rəhbəri bildirib ki, 2024-cü ildə Akademiyada keçirilən "Əziz Səncər həftəsi" çərçivəsində təşkil olunan tədbirlər və alimin Rəyasət Heyətində Azərbaycan alimləri qarşısında təqdim etdiyi məruzə müasir dünya elminin vəziyyətinin təhlili, eləcə də elmin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından önəmli olub.

Son illərdə Asiya ölkələri, xüsusilə Çin ilə elmi əməkdaşlığa xüsusi diqqət yetirildiyini deyən akademik İsa Həbibbəyli AMEA-nın Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Honkonq Kore Akademiyası, Pekin Xarici Dillər Universiteti, Hebey Pedaqoji Universiteti kimi elmi müəssisələri və universitetləri ilə geniş əlaqələrin qurduğunu, səfərlərin, görüşlərin təşkil olunduğunu söyləyib. AMEA prezidenti bu çərçivədə Çin Sosial Elmlər Akademiyası ilə 2016-cı ildə imzalanmış əməkdaşlıq müqaviləsinin yenilənməsinin nəzərdə tutulduğunu, rəqəmsallaşma və süni intellektin humanitar və ictimai elmlərə nüfuz etdiyi müasir dövrdə bu əməkdaşlığın yeni istiqamətlərlə zənginləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib.

Akademik İsa Həbibbəyli Çin universitetləri ilə elmi əməkdaşlıq çərçivəsində həyata keçirilən proqramlara da toxunub. O qeyd edib ki, Pekin Xarici Dillər Universitetinin tələbələri artıq üçüncü ildir Azərbaycanda təcrübə proqramlarında iştirak edir, Azərbaycan dili və ölkəmizin elmi-mədəni mühiti ilə bağlı biliklərini artırırlar.

Akademik İsa Həbibbəyli Azərbaycan elminin Avropanın elmi qurumları ilə əlaqələrinin də genişləndirildiyini bildirib. AMEA rəhbəri İtaliya, Albaniya, Gürcüstan, Bolqarıstan və Almaniya ilə elmi əməkdaşlığın inkişaf etdirilməsinin, birgə tədbirlərin keçirilməsinin və yeni əlaqələrin qurulmasının əhəmiyyətini vurğulayıb.

AMEA prezidenti qeyd edib ki, müasir dövrdə süni intellekt, rəqəmsallaşma və yeni texnologiyalar elmin inkişafına ciddi təsir göstərir. Bu səbəbdən Azərbaycan elmi beynəlxalq təcrübəni öyrənməli, dünya elminin nailiyyətlərindən faydalanmalı və həmin imkanları milli elmi potensialın inkişafına yönəltməlidir.

Akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycan elminin gələcək inkişafı ölkənin zəngin elmi ənənələrinin qorunması, müasir çağırışlara uyğunlaşma və beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə sıx bağlıdır. O vurğulayıb ki, dövlət başçısının çağırışlarına uyğun şəkildə dünya elmi məkanına inteqrasiya, alimlər arasında təcrübə mübadiləsi və yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi AMEA-nın qarşısında duran mühüm vəzifələrdəndir.

Daha sonra iclasda **AMEA-nın vitse-prezidenti akademik Dilqəm Tağıyev** "2026-cı ilin Nobel mükafatı və laureatları: dünya elminin prioritetləri və Azərbaycan elminin vəzifələri" mövzusunda məruzəsini təqdim edib.

Natiq məruzəsində 1901-2026-cı illər üzrə Nobel mükafatı laureatlarının statistikasını təqdim edib, bildirib ki, Nobel mükafatına layiq görülmüş nailiyyətlərin öyrənilməsi Azərbaycan elmində aktual tədqiqat problemlərinin müəyyənləşdirilməsi, fənlərarası araşdırmaların inkişafı və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi üçün əhəmiyyətlidir. Onun sözlərinə görə, bu istiqamətdə müzakirələrin təşkili elmi müəssisələrin fəaliyyət profilinə uyğun yeni tədqiqat imkanlarının qiymətləndirilməsinə və gənc alimlərin qabaqcıl elmi təcrübə ilə tanışlığına xidmət edir.

Məruzədə, həmçinin qeyd olunub ki, ölkəmiz 2026-cı il Qlobal İnnovasiya İndeksində 139 ölkə arasında 85-ci, elmi məhsuldarlığa görə isə 236 ölkə arasında 73-cü yerdə qərarlaşıb. Bundan əlavə, dünya elminin qarşısında duran əsas hədəflər, elm adamlarının hələ də cavab tapa bilmədiyi fundamental suallar və digər məsələləri iştirakçılara təqdim edib.

Müzakirələrdən sonra AMEA-nın Rəyasət Heyəti tərəfindən müvafiq qərar qəbul olunub.

Daha sonra iclasda Qafqaz Albaniyasının tarixi, mədəniyyəti və arxeologiyasının tədqiqinə dair AMEA-nın Tədbirlər planının təsdiq edilməsi məsələsinə baxılıb.

Akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da Qafqaz Albaniyasının tarixinin və mədəni irsinin öyrənilməsi istiqamətində ardıcıl və sistemli tədqiqatlar aparılır. Həmçinin bu günlərdə AMEA-da "Azərbaycanın Qarabağ ərazisində Alban abidələri: tarixi reallıq və erməni saxtakarlığı" mövzusunda elmi konfransın keçirildiyini, AMEA-nın Rəyasət Heyətinin iclasında elmi məruzənin dinlənildiyini xatırladıb.

Vurğulayıb ki, ötən müddət ərzində təqdim olunmuş müvafiq təkliflər əsasında AMEA-nın İctimai Elmlər Bölməsi tərəfindən "Qafqaz Albaniyasının tarixi, mədəniyyəti və arxeologiyasının tədqiqinə dair AMEA-nın Tədbirlər planı"nın layihəsi hazırlanaraq AMEA-nın Rəyasət Heyətinə təqdim edilib.

O, həmçinin cari ilin sonunda Qafqaz Albaniyasının tədqiqi ilə məşğul olan alimlərin iştirakı ilə geniş tədbirin keçirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Daha sonra AMEA-nın akademik-katibi akademik Arif Həşimov Tədbirlər planını diqqətə çatdırıb.

Tədbirlər planında Qafqaz Albaniyasının tarixinə və maddi-mədəni irsinə dair respublika mediasında, radio və televiziyalarda populyar məqalələr ilə çıxışların edilməsi, elmi həqiqətlərin geniş oxucu kütləsinə, tamaşaçı və dinləyici auditoriyasına çatdırılması, Qafqaz Albaniyasının tarixi-coğrafiyasına dair müasir tələblərə cavab verən kartoqrafik materialların hazırlanması, Qafqaz Albaniyasının tarixinə və etnologiyasına dair epiqrafik və etnoqrafik materialların toplanılması üçün növbəti ildən etibarən tarixi-etnoqrafik ekspedisiyaların təşkil edilməsi, Qafqaz Albaniyasının irsinə aid arxeoloji tədqiqatların multidissiplinar modeldə təşkili və arxeoloji ekspedisiyaların genişləndirilməsi və digər bəndlər yer alıb.

Geniş müzakirələrdən sonra müvafiq qərar qəbul olunub.

İclasda müzakirə edilən növbəti məsələlər "2026-cı il üzrə AMEA-nın elmi və elmi-təşkilati fəaliyyətinə dair hesabatların hazırlanması haqqında" və "2026-cı il üzrə AMEA-nın elmi müəssisələrinin elmi və elmi-təşkilati fəaliyyətinin bal sistemi əsasında rəqəmsal hesabatının pilot qaydada tətbiqi haqqında" olub.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, noyabrın 1-dən etibarən şöbələrdə və laboratoriyalarda hesabatların dinlənilməsinə başlanılmalı, ay ərzində institutların elmi şuralarında müzakirələr aparılmalıdır. Onun sözlərinə görə, prosesin səmərəli təşkili üçün institut direktorları, elmi işlər və rəqəmsallaşma üzrə direktor müavinləri, elmi katiblər şöbələrdə keçirilən müzakirələrdə iştirak etməlidirlər.

Akademik İsa Həbibbəyli bu gün rəqəmsal hesabat sisteminə keçidin vacib olduğunu, bunun mərhələli şəkildə həyata keçiriləcəyini vurğulayıb. Bildirib ki, cari ildə ənənəvi kağız hesabatlarla yanaşı, institutların elmi şuralarında və bölmə iclaslarında rəqəmsal hesabatların təqdim edilməsi də təşviq olunacaq.

Qeyd olunub ki, cari ildə rəqəmsal hesabat sisteminin tətbiqini sürətləndirmək məqsədilə dörd institutun - Humanitar Elmlər Bölməsi üzrə Ədəbiyyat İnstitutu və Folklor İnstitutu, İctimai Elmlər Bölməsi üzrə isə Arxeologiya və Antropologiya İnstitutu, eləcə də Fəlsəfə və Sosiologiya İnstitutunun pilot institutlar kimi bu prosesə cəlb edilməsi planlaşdırılır.

AMEA rəhbəri rəqəmsallaşmanın müasir dövrün əsas inkişaf istiqamətlərindən biri olduğunu vurğulayaraq, ölkədə bu sahədə həyata keçirilən dövlət siyasətinin əhəmiyyətini qeyd edib. O, institut direktorlarını rəqəmsal hesabat sisteminin tətbiqinə dəstək verməyə, elmi işlər və rəqəmsallaşma üzrə direktor müavinlərini isə bu istiqamətdə üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməyə çağırıb.

AMEA prezidenti rəqəmsallaşma prosesinin uğurla həyata keçirilməsi üçün hər şöbədə bu işə məsul əməkdaşların müəyyənləşdirilməsinin və onların müvafiq təlimlərə cəlb edilməsinin əhəmiyyətini vurğulayıb. Bildirib ki, şöbələrdə məlumatların sistemə daxil edilməsi, rəqəmsallaşdırılması və hesabatların hazırlanması ilə məşğul olacaq kadrlar yetişdirilməlidir. Müvafiq mexanizmin yaradılması və əməkdaşların texniki imkanlarla təmin olunması rəqəmsal hesabat sisteminin səmərəli tətbiqinin əsas şərtləridir.

Akademik İsa Həbibbəyli həmçinin Akademiya əməkdaşlarının rəqəmsal bacarıqlarının artırılması istiqamətində görülən işlərə toxunub. Qeyd edib ki, artıq bir çox əməkdaş rəqəmsal inkişaf üzrə təşkil olunan təlimlərdə iştirak edərək sertifikatlar əldə ediblər.

Akademik sonda rəqəmsal hesabat sisteminə keçidin mərhələli şəkildə, ardıcıl müzakirələr və konkret tapşırıqlar əsasında həyata keçirilməli olduğunu vurğulayıb. O, bu istiqamətdə işlərin sürətləndirilməsinin və qarşıya qoyulan məqsədlərin vaxtında reallaşdırılmasının zəruriliyini qeyd edib.

İclasda müzakirə edilən növbəti məsələ AMEA-nın VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna hazırlığının vəziyyəti haqqında olub.

Məsələ ilə bağlı çıxış edən **AMEA-nın Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri** bildirib ki, müasir dünyada münaqişələrin, siyasi qütbləşmənin və qarşılıqlı etimadsızlığın artdığı şəraitdə mədəniyyətlərarası dialoqun əhəmiyyəti daha da yüksəlir. Onun sözlərinə görə, miqrasiya, mədəni kimliyin qorunması, rəqəmsal mühitdə ayrı-seçkilik və süni intellektlə bağlı yeni çağırışlar cəmiyyətlər arasında qarşılıqlı anlaşmanın gücləndirilməsini zəruri edir.

Sərxan Xavəri Akademik Forumun AMEA alimlərinin tədqiqatlarının beynəlxalq elmi müzakirəyə çıxarılması və humanitar elmlərin müasir dünyada rolunun nümayiş etdirilməsi baxımından əhəmiyyət daşıdığını qeyd edib.

Sonra akademik İsa Həbibbəyli çıxış edərək tədbirin yüksək səviyyədə keçirilməsi üçün müvafiq tapşırıqlarını verib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli daha sonra Qazaxıstan Respublikasına səfərinin yekunları haqqında məlumat verib. Akademik İsa Həbibbəyli qeyd edib ki, 15-18 oktyabr tarixlərində Qazaxıstanın Almatı şəhərində Qazaxıstan Respublikası Milli Elmlər Akademiyasının 80 illik yubiley tədbirlərində və Beynəlxalq Türk Akademiyaları Birliyinin IX Baş Assambleyasında iştirak edib. Yubiley tədbirində akademik İsa Həbibbəyli Azərbaycan və Qazaxıstan arasında elmi əlaqələrin tarixi, inkişaf mərhələləri və mühüm elmi nailiyyətlərindən bəhs edib, Qazaxıstan Milli Elmlər Akademiyasının kollektivini əlamətdar yubiley münasibətilə təbrik edib. Səfər çərçivəsində Almatı şəhərində Beynəlxalq Türk Akademiyaları Birliyinin IX Baş Assambleyası keçirilib. Baş Assambleyada Beynəlxalq Türk Akademiyasının vitse-prezidenti Asxat Kesıkbayev 2027-2028-ci illərdə Beynəlxalq Türk Akademiyaları Birliyinə növbəlilik əsasında Azərbaycan Milli Elmlər Akademiyasının sədrlik edəcəyini elan edib. Türk Akademiyaları Birliyinə üzv ölkələrin elmlər akademiyalarının rəhbərləri Əl-Fərabi adına Qazax Milli Universitetində rəqəmsallaşma və süni intellekt sahəsində aparılan işlərlə də tanış olublar.

Qeyd olunanları nəzərə alaraq, AMEA-nın Rəyasət Heyəti müvafiq qərar qəbul edib.

İclasda AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Dünya tarixi və Qafqaz tarixi şöbələrinin bazasında daxili imkanlar və mövcud ştat vahidləri hesabına Dünya və Qafqaz tarixi şöbəsinin yaradılması haqqında qərar qəbul olunub.

Həmçinin Rəyasət Heyətinin qərarı ilə Möhübbət Orucov AMEA-nın "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin rəqəmsal inkişaf üzrə direktor müavini vəzifəsinə təsdiq edilib.

Bundan əlavə, AMEA-nın müxbir üzvü Telman Qurbanovun 90, AMEA-nın müxbir üzvü Qüdrət Kəlbəliyevin isə 80 illik yubileyi haqqında qərarlar qəbul olunub.

İclasda qeyd olunan məsələlər ətrafında **akademik Rasim Əliquliyev, akademik Arif Həşimov, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov, biologiya elmləri doktoru Tubuxanım Qasımzadə, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, professor Kərim Şükürov, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev** və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

Sonda çıxış edən akademik İsa Həbibbəyli 8 Noyabr - Zəfər Gününün AMEA-nın elmi müəssisə və təşkilatlarında yüksək səviyyədə keçirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verib.

AMEA-da akademik Ədilə Namazovanın 100 illik yubileyi qeyd olunub





Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) AMEA-nın Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Tibb Universitetinin təşkilatçılığı ilə görkəmli alim, pedaqoq və ictimai xadim, tibb elmləri doktoru, professor, akademik Ədilə Namazovanın anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.



Tədbirdə dövlət qurumlarının, elmi müəssisələrin və tibb ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Yubiley tədbiri çərçivəsində əvvəlcə Fəxri xiyabanda akademik Ədilə Namazovanın məzarı ziyarət olunub, daha sonra alimin həyat və fəaliyyətinə həsr edilmiş sərgi nümayiş etdirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxışında akademik Ədilə Namazovanın 94 illik ömrünü Azərbaycanda səhiyyənin, pediatriyanın və tibb elminin inkişafına həsr etdiyini deyib, alimin çoxillik elmi və həkimlik fəaliyyətinin respublikada pediatriya elminin formalaşmasında mühüm yer tutduğunu qeyd edib.

Akademik bildirib ki, Ədilə Namazovanın bütün həyatı səhiyyə və tibb elmi ilə bağlı olub. O, 1957-ci ildən həkimlik fəaliyyətinə başlayıb, sonralar xəstəxana rəhbəri kimi çalışıb. 1965-ci ildən 2020-ci ilədək Azərbaycan Dövlət Tibb Universitetində fəaliyyət göstərib. Beləliklə, alimin həyatının 55 ili ali tibb təhsili və elmi-pedaqoji fəaliyyətlə bağlı olub.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, Ədilə Namazova həm peşəkar həkim-pediatr, həm də pediatriya və kardiologiya sahələrində tanınmış alim kimi Azərbaycan səhiyyəsində özünəməxsus mövqeyə malik olub. Onun elmi fəaliyyəti yalnız ölkəmizdə deyil, Azərbaycanın hüdudlarından kənarda da maraq doğurub. Alimin tədqiqatlarında uşaqlarda revmatizm, ürək xəstəlikləri, ürək qüsurları, bu xəstəliklərin müalicəsi və aradan qaldırılması yolları araşdırılıb.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev akademik Ədilə Namazovanın elmi fəaliyyətini hər zaman yüksək qiymətləndirib və onu Azərbaycanda elmi pediatriyanın banisi adlandırıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılmasında və inkişafında Ədilə Namazovanın böyük dəstəyi olub. Ədilə xanım 10 ildən artıq müddətdə bu universitetdə mühazirələr oxuyub, ustad dərsləri keçib.

AMEA prezidenti qeyd edib ki, Ədilə Namazovanın zəngin elmi əsərləri, monoqrafiyaları və dərslikləri isə bu gün də elmi və pedaqoji fəaliyyət üçün dəyərli mənbə olaraq qalır. Alimin fəaliyyəti həkimlik təcrübəsi ilə elmi araşdırmaların vəhdətinin parlaq nümunəsi kimi dəyərləndirilə bilər.

Akademik İsa Həbibbəyli çıxışın sonunda akademik Ədilə Namazovanın elmi, pedaqoji və ictimai xidmətlərinin dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsinin onun şəxsiyyətinə və Azərbaycan elminə verdiyi töhfələrə göstərilən ehtiramın ifadəsi olduğunu vurğulayıb.

Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov çıxışında akademik Ədilə Namazovanın dünya pediatriyasının və tibb elminin inkişafına mühüm töhfələrdən, uşaqlarda anadangəlmə ürək qüsurlarının öyrənilməsi, müayinə və müalicə məsələlərinin araşdırılması istiqamətində apardığı tədqiqatlardan bəhs edib.

Akademik Əhliman Əmiraslanov Ədilə Namazovanı ötən əsrin 70-ci illərindən tanıdığını, alimin elmi fəaliyyətini, tibb ictimaiyyətində qazandığı nüfuzu yaxından müşahidə etdiyini bildirib. Ədilə Namazovanın elmi fəaliyyətinin ilk mərhələlərindən etibarən uşaqlarda anadangəlmə ürək qüsurlarının öyrənilməsinə xüsusi diqqət yetirdiyini vurğulayıb. Qeyd edib ki, o dövrdə anesteziologiya və reanimatologiya sahələri indiki səviyyədə inkişaf etmədiyindən ürək qüsurlarının cərrahi müalicəsi ciddi risklərlə müşayiət olunurdu. Buna görə də əməliyyata göstəriş və əks-göstərişlərin müəyyənləşdirilməsi, mümkün ağırlaşmaların əvvəlcədən qiymətləndirilməsi və onların qarşısının alınması yollarının araşdırılması böyük əhəmiyyət daşıyırdı.

Akademik Əhliman Əmiraslanov Ədilə Namazovanın keçmiş SSRİ-nin tibb elmi ictimaiyyətində qazandığı yüksək nüfuzu xüsusi qeyd edib. Ədilə Namazovanın elmi fəaliyyəti dövründə Moskvanın tanınmış tibb müəssisələri, o cümlədən akademik Boris Petrovskinin rəhbərlik etdiyi cərrahiyyə mərkəzi ilə sıx elmi əlaqələr qurduğunu, həmin dövrdə uşaqlarda anadangəlmə ürək qüsurlarının cərrahi müalicəsi üzrə aparılan araşdırmaların bu əməkdaşlığın mühüm istiqamətlərindən olduğunu bildirib.

Qeyd edib ki, alimin SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilməsi Azərbaycan elmi, xüsusilə də qadın alimlər üçün əlamətdar hadisə idi. Ədilə Namazova həmin dövrdə tanınmış alimlər və tibb mütəxəssisləri arasında böyük hörmət qazanmışdı. O, Ədilə Namazova ilə Azərbaycan Tibb Universitetində uzun illər birgə çalışdığını xatırladaraq alimin universitetin elmi və ictimai həyatında fəal iştirak etdiyini bildirib.

Sonra çıxış edən **AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova** akademik Ədilə Namazovanın Azərbaycanda pediatriya elminin inkişafında, milli pediatriya məktəbinin formalaşmasında və yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasında rolundan danışıb.

AMEA-nın vitse-prezidenti diqqətə çatdırıb ki, Ədilə Namazova böyük elmi nüfuzuna baxmayaraq, sadəliyi, məsuliyyətli yanaşması və tələbkarlığı ilə seçilib. O, həkim kimi xəstələrinə həssaslıqla yanaşıb, müəllim kimi gənc mütəxəssislərdən yüksək peşəkarlıq tələb edib. Bu keyfiyyətlər alimin şəxsiyyətinin və elmi irsinin ayrılmaz hissəsi olub.

O, həmçinin Ədilə Namazovanın elmi tədqiqatların etik aspektlərinin öyrənilməsindəki rolunu xüsusi vurğulayıb. Qeyd edib ki, alim tibbi tədqiqatlarda etik prinsiplərin araşdırılmasına xüsusi diqqət yetirib, bu sahədə maarifləndirmə və elmi biliklərin yayılmasına mühüm töhfələr verib. Bioetika istiqamətində fəaliyyəti və bu mövzuda hazırladığı əsərlər onun zəngin elmi irsinin mühüm hissəsini təşkil edir.

Akademik İradə Hüseynova Ədilə Namazovanın Azərbaycan Milli Elmlər Akademiyası, xüsusilə Biologiya və Tibb Elmləri Bölməsi ilə bağlı fəaliyyətindən də danışıb. Bildirib ki, Ədilə xanıma tibb və biologiyanın kəsişməsində dayanan mürəkkəb dövlət proqramlarına, milli strategiya layihələrinə və fundamental konsepsiyalara rəy vermək lazım gələndə o, heç vaxt məsələyə formal yanaşmazdı.

Vitse-prezident minnətdarlıqla qeyd edib ki, 2020-ci ilin əvvəllərində bütün dünyanı, o cümlədən ölkəmizi əhatə edən COVID-19 pandemiyasının ilk günlərində, cəmiyyətdə qeyri-müəyyənliyin və tələşın hökm sürdüyü bir vaxtda Azərbaycanda bu qlobal təhlükə ilə bağlı ilk elmi tədbirin təşkili zamanı Ədilə xanım heç bir müraciət gözləmədən təşəbbüs göstərərək öz köməyini təklif edib. Məsələlərin düzgün qoyuluşundan virusun uşaq orqanizminə mümkün təsirlərinin müzakirəsinə qədər tədbirin bütün mərhələlərində fəal iştirak edib və könüllü şəkildə onun əsas ideya müəlliflərindən birinə çevrilib.

AMEA-nın vitse-prezidenti çıxışının sonunda akademik Ədilə Namazovanın zəngin elmi irsinin, yaratdığı məktəbin və yetişdirdiyi mütəxəssislərin Azərbaycan tibb elminin gələcək inkişafı üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Sonra proqram çərçivəsində akademik Ədilə Namazovaya həsr edilmiş videoçarx nümayiş etdirilib.

Daha sonra **Azərbaycan Tibb Universitetinin prorektoru tibb elmləri doktoru, professor Məlahət Sultanova** məruzə ilə çıxış edərək akademik Ədilə Namazovanın zəngin elmi tərcümeyi-halı, elmi, pedaqoji və ictimai fəaliyyəti barədə ətraflı danışıb.

Bildirilib ki, akademik Ədilə Namazova Azərbaycan tibb elminin inkişafında özünəməxsus iz qoyub, pediatriyanın elmi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfələr verib və çoxsaylı fundamental və tətbiqi tədqiqatları ilə bu sahənin inkişaf istiqamətlərinin müəyyənləşməsində fəal iştirak edib. Onun elmi fəaliyyəti uşaqlarda müxtəlif xəstəliklərin, xüsusilə yoluxucu və irsi xəstəliklərin öyrənilməsi, onların erkən diaqnostikası, profilaktikası və müalicəsi ilə yanaşı, uşaq sağlamlığının qorunmasının elmi və təşkilati əsaslarının işlənib hazırlanmasını da əhatə edib. Professor Məlahət Sultanova vurğulayıb ki, Ədilə Namazovanın rəhbərliyi və elmi məsləhətçiliyi ilə çox sayda tədqiqat aparılıb, yeni alim nəsli formalaşıb və onun yaratdığı elmi məktəb bu gün də öz ənənələrini davam etdirir.

Qeyd edilib ki, Ədilə Namazovanın həyat və fəaliyyətində uşaqlara qayğı, şəfqət, elmə bağlılıq və insan sevgisi mühüm yer tutub.

Məlahət Sultanova xüsusi olaraq qeyd edib ki, Ədilə Namazovanın elmi yolu yalnız fərdi nailiyyətlərlə məhdudlaşmayıb. O, pediatriyanın müxtəlif istiqamətlərində tədqiqatların inkişafına rəhbərlik etməklə yanaşı, elmi məktəb yaradıb, öz bilik və təcrübəsini çoxsaylı tələbə, həkim və alim nəslinə ötürüb. Bu baxımdan onun elmi irsi yetişdirdiyi mütəxəssislərin elmi fəaliyyətində və Azərbaycan pediatriyasının sonrakı inkişafında da öz əksini tapır.

Məruzənin sonunda professor Məlahət Sultanova akademik Ədilə Namazovanın çoxşaxəli fəaliyyətinin Azərbaycan səhiyyəsi, tibb elmi və pedaqoji fikri üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb, onun zəngin elmi irsinin gələcək nəsillər üçün də mühüm mənbə olaraq qalacağını qeyd edib.

Tədbirdə çıxış edən **Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev** Azərbaycanın ilk qadın pediatr alimi, akademik Ədilə Namazovanın adının Azərbaycan səhiyyəsi və dünya tibb elminin tarixinə qızıl hərflərlə yazıldığını vurğulayıb.

Ramik Quliyev qeyd edib ki, Ədilə Namazova Azərbaycan Tibb Universitetində uzun illər pedaqoji fəaliyyət göstərərək tələbələrin və gənc tədqiqatçıların elmi dünyagörüşünün formalaşmasına xüsusi diqqət yetirib. Tələbə Elmi Cəmiyyətinin iclaslarında mütəmadi iştirak edən akademik gənclərin elmi axtarışlarını dəstəkləyib, onların tədqiqat mövzularının düzgün müəyyənləşdirilməsi, elmi yanaşmalarının formalaşdırılması və araşdırmalarının nəticələrinin təqdim olunması ilə bağlı dəyərli tövsiyələr verib.

Şöbə müdiri vurğulayıb ki, Ədilə Namazovanın gənc alimlərə münasibətində tələbkarlıqla yanaşı, elmə həvəsin və tədqiqatçılıq ruhunun dəstəklənməsi xüsusi yer tutub.

Ramik Quliyev Ədilə Namazovanın elmi irsinin gələcək nəsillər üçün də əhəmiyyət daşıdığını qeyd edərək, onun adı və çoxşaxəli fəaliyyəti ilə Azərbaycan tibb elminin inkişafında mühüm bir səhifənin yazıldığını vurğulayıb.

Elmi Təşkilatların Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri, professor Habil Qurbanov akademik Ədilə Namazovanın Ağdamda başlayan həkimlik fəaliyyətinin onun gələcək elmi yolunun formalaşmasında mühüm rol oynadığını vurğulayıb.

Habil Qurbanov çıxışında akademik Ədilə Namazovanın nəsil şəcərəsindən də bəhs edərək onun ailə üzvlərinin əksəriyyətinin səhiyyə və tibb sahəsində fəaliyyət göstərdiyini, beləliklə, bu sahəyə xidmətin ailənin həyatında xüsusi yer tutduğunu vurğulayıb.

Tədbirdə akademik Ədilə Namazovanın yetirməsi, **Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə** Ədilə Namazovanın və onun uzun illər rəhbərlik etdiyi Azərbaycan Pediatrlar Assosiasiyasının fəaliyyətinə həsr olunmuş təqdimatla çıxış edib.

Təranə Tağı-zadə çıxışında akademik Ədilə Namazovanın Azərbaycan pediatriyasının inkişafındakı müstəsna xidmətlərini, formalaşdırdığı elmi məktəbin əhəmiyyətini və tibb elminə qazandırdığı dəyərləri diqqətə çatdırıb. O vurğulayıb ki, Ədilə xanım gənc həkimlərin tədqiqatlara cəlb olunmasına, elmi potensiallarının üzə çıxarılmasına və müstəqil alim kimi formalaşmalarına böyük əmək sərf edib. Bu gün Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda fəaliyyət göstərən çoxsaylı həkim və alimlər Ədilə Namazovanın yaratdığı elmi məktəbin davamçılarıdır.

Təranə Tağı-zadə alimin tədqiqatlarının pediatriyada diaqnostika və müalicə yanaşmalarının təkmilləşdirilməsinə, uşaqların sağlamlığının qorunmasına və tibb elminin inkişafına mühüm töhfələr verdiyini deyib, akademikin fəaliyyətinin mühüm istiqamətlərindən biri kimi tibbi etika və bioetika sahəsində xidmətlərini xüsusi vurğulayıb.

Azərbaycan Pediatrlar Assosiasiyasının fəaliyyətinə toxunan Təranə Tağı-zadə rəhbərlik etdiyi qurumun inkişafında akademik Ədilə Namazovanın xidmətlərini və yaratdığı ənənələrin əhəmiyyətini vurğulayıb.

Assosiasiyanın bugünkü fəaliyyətinin də həmin irsin davam etdirilməsinə, pediatrların elmi potensialının gücləndirilməsinə, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə və müasir pediatriyanın nailiyyətlərinin ölkəmizdə tətbiqinə xidmət etdiyi deyib.

Çıxışının sonunda qeyd edib ki, akademik Ədilə Namazova bu gün aramızda olmasa da, onun yaratdığı elmi məktəb yaşayır, yetirmələrinin fəaliyyəti ilə zənginləşir, ideyaları və peşəkar prinsipləri yeni nəsillərə ötürülür. Ədilə xanımın ömür boyu qoruduğu elmə sədaqət, insanlara şəfqət və peşəyə məsuliyyət prinsipləri Azərbaycan pediatriyasının gələcək inkişafında da öz əhəmiyyətini saxlayacaqdır.

Sonda **akademik Ədilə Namazovanın ailəsi adından bacısı Tamella Namazova** çıxış edərək, əlamətdar yubiley tədbirinin təşkilinə və Ədilə xanımın əziz xatirəsinin yaşadılmasına göstərilən diqqətə görə AMEA rəhbərliyinə minnətdarlığını ifadə edib.

AMEA və Buxarest İqtisadi Tədqiqatlar Universiteti arasında elmi tərəfdaşlıq genişlənir



Oktyabrın 28-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Rumıniyanın Buxarest İqtisadi Tədqiqatlar Universitetinin rektoru prof., Dr. Nikolae İstudor və universitetin beynəlxalq əlaqələr üzrə prorektoru prof., Dr. Konstanstin Marius Profiroiu ilə görüşüb.

AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Milli Elmlər Akademiyasının tarixi, əldə etdiyi nailiyyətlər, eləcə də müasir dünya elminin çağırışlarından irəli gələrək aparılan tədqiqatlar barədə məlumat verib.

Son dövrlərdə AMEA-nın beynəlxalq əlaqələrinin genişləndiyini diqqətə çatdıran akademik İsa Həbibbəyli Azərbaycan ilə Rumıniya arasında elmi əməkdaşlığa və birgə tədqiqatların aparılmasına önəm verildiyini, hazırda Akademiyanın Rumıniyanın iki ali təhsil müəssisəsi ilə əməkdaşlıq etdiyini söyləyib.

Akademik İsa Həbibbəyli AMEA-nın Buxarest İqtisadi Tədqiqatlar Universiteti ilə sosiologiya, fəlsəfə, kibertəhlükəsizlik və süni intellekt sahələrində əməkdaşlığın perspektivləri olduğunu bildirib, bu istiqamətdə sözügedən universitet arasında əməkdaşlıq memorandumunun imzalanmasını təklif edib.

Bundan əlavə, birgə konfransların təşkili, elmi jurnallarda məqalə mübadiləsi, eləcə də doktorantların yay məktəblərində iştirak imkanları müzakirə olunub.

Akademik İsa Həbibbəyli Rumıniya ilə qarşılıqlı əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağını qeyd edib.

Görüşdə çıxış edən Rumıniyanın Buxarest İqtisadi Tədqiqatlar Universitetinin rektoru prof., Dr. Nikolae İstudor rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti və beynəlxalq əməkdaşlıq əlaqələri barədə məlumat verib. Rektor bildirib ki, 1913-cü ildə əsası qoyulan universitetdə 13 fakültə fəaliyyət göstərir və ingilis, fransız, alman dillərində təhsil proqramları da mövcuddur.

Onun sözlərinə görə, universitetdə 27 mindən çox tələbə təhsil alır, tədris prosesinə özəl sektordan və xarici ölkələrdən dəvət olunan mütəxəssislər də cəlb edilir. Universitet, həmçinin ABŞ, Böyük Britaniya və Fransada çalışan rumın professorlarla əməkdaşlıq edərək diaspor nümayəndələrinin akademik fəaliyyətə cəlb olunmasına çalışır.

Nikolae İstudor bildirib ki, universitetin Kanadada yerləşən Kvebek Universiteti ilə birgə həyata keçirdiyi MBA proqramı beynəlxalq reytinqlərdə yüksək mövqeyə malikdir və proqram QS reytinqində 25-ci yerdə qərarlaşıb.

Rektor Rumıniyada fəaliyyət göstərən elmi akademiyalarla əlaqələrə də toxunub. O, universitetin Rumıniya Akademiyası ilə birgə tədqiqat layihələri həyata keçirdiyini, eləcə də bir sıra elmi istiqamətlər üzrə fəaliyyət göstərən akademiyalarla əməkdaşlıq əlaqələrinin olduğunu vurğulayıb.

Nikolae İstudor Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb, AMEA ilə əməkdaşlıq memorandumunun imzalanması təklifini yüksək qiymətləndirib.

Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru prof., Dr. Konstanstin Marius Profiroiu təmsil etdiyi qurumun beynəlxalq əməkdaşlıq əlaqələri, akademik mübadilə proqramları barədə məlumat verib. Prorektor bildirib ki, universitet dünyanın 82-dən çox elmi qurum və ali təhsil müəssisəsi ilə tərəfdaşlıq əlaqələri qurub. Əməkdaşlıqda Avropa ölkələri ilə yanaşı, Asiya, Şimali və Cənubi Amerika, Afrika və Avstraliyadakı qurumlar da təmsil olunur. Son illərdə Türkiyə ilə əlaqələrin genişləndirildiyini, hazırda bu ölkənin 32-dən çox universiteti ilə əməkdaşlıq edildiyini qeyd edib.

Konstanstin Marius Profiroiu universitetin beynəlxalq reqabət qabiliyyətinin artırılmasının əsas prioritetlərdən biri olduğunu vurğulayıb.

Müzakirələr zamanı Azərbaycan Milli Elmlər Akademiyası və Rumıniyanın Buxarest İqtisadi Tədqiqatlar Universiteti arasında elmi əməkdaşlıq haqqında memorandum imzalanması barədə razılıq əldə olunub.

Qeyd edək ki, görüşdə AMEA-nın akademik-katibi akademik Arif Həşimov, AMEA-nın Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov və AMEA-nın Rəyasət Heyətinin elmi katibi iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov da iştirak ediblər.

AMEA ilə Özbəkistanın İslam Sivilizasiyası Mərkəzi arasında elmi əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb



AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Özbəkistanın İslam Sivilizasiyası Mərkəzinin direktoru Firdavs Abduxaliqovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Özbəkistan Respublikasının ölkəmizdəki fövqaladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov da iştirak edib.

AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə çıxış edən akademik İsa Həbibbəyli tarixi köklərə söykənən Azərbaycan-Özbəkistan münasibətlərinin bu gün yüksək səviyyədə olduğunu bildirib. Qeyd edib ki, son illərdə iki ölkə arasında münasibətlərin möhkəmlənməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin müstəsna rolu var.

Daşkənddə Heydər Əliyevin abidəsinin və parkının yaradılmasını, Bakıda isə böyük özbək şairi Əlişir Nəvainin abidəsinin ucaldılmasını xatırladan akademik İsa Həbibbəyli hər il ədibin doğum günündə keçirilən tədbirlər çərçivəsində Əlişir Nəvainin abidəsinin ziyarət olunduğunu deyib, bu münasibətlərin səmimi dostluq və qarşılıqlı hörmətə əsaslandığını vurğulayıb.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Azərbaycan və Özbəkistan arasında tarixi, mədəni və mənəvi bağların möhkəmləndirilməsi istiqamətində elmin və akademik qurumların üzərinə mühüm vəzifələr düşür.

Özbəkistanda yeni yaradılmış İslam Sivilizasiyası Mərkəzinin əhəmiyyətinə toxunan AMEA rəhbəri bu mərkəzin yalnız dini deyil, həm də elmi, mədəni, fəlsəfi və ictimai irsi əhatə etdiyini, maariflənməyə və tərəqqiyə xidmət edəcəyini söyləyib.

Sonra çıxış edən Özbəkistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov vurğulayıb ki, Azərbaycan alimləri Özbəkistanın tarixi və mədəni irsinin öyrənilməsi və təbliği istiqamətində mühüm işlər görürlər. Səfir xüsusilə AMEA-da Əlişir Nəvai irsinin tədqiqi və təbliği ilə bağlı, o cümlədən Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Əlişir Nəvai adına Ədəbiyyatşünaslıq Mərkəzinin fəaliyyətini yüksək qiymətləndirib.

Səfir AMEA rəhbərliyinin Azərbaycan-Özbəkistan elmi əlaqələrinin möhkəmləndirilməsinə verdiyi dəstəyi xüsusi vurğulayıb.

Görüşdə çıxış edən Özbəkistanın İslam Sivilizasiyası Mərkəzinin direktoru Firdavs Abduxaliqov göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib, vurğulayıb ki, bu gün iki ölkə arasında münasibətlər səmimi dostluq və ortaq mənəvi dəyərlərə əsaslanır. Mərkəzin direktoru iki ölkənin elmi və mədəni əlaqələrinin daha da inkişaf etdirilməsinə və bu istiqamətdə birgə fəaliyyətə hazır olduqlarını bildirib.

Mərkəzin direktoru gələcək əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi beynəlxalq elmi konfransların təşkilini qeyd edib. Bildirib ki, 2027-ci ildə qarşılıqlı səfərlər və elmi tədbirlər vasitəsilə əməkdaşlığın praktik mərhələyə keçirilməsi nəzərdə tutulur.

Çıxışlardan sonra AMEA ilə Özbəkistanın İslam Sivilizasiyası Mərkəzi arasında elmi əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənədi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və İslam Sivilizasiyası Mərkəzinin direktoru Firdavs Abduxaliqov imzalayıblar.

Azərbaycan-Özbəkistan elmi-mədəni əlaqələrinin inkişafına verdiyi töhfələrə görə Özbəkistanın İslam Sivilizasiyası Mərkəzinin direktoru Firdavs Abduxaliqova "AMEA-nın Üzeyir Hacıbəyli" döş nişanı təqdim olunub.

Daha sonra hədiyyələr təqdim edilib.

Qonaqlar AMEA Rəyasət Heyətinin binası ilə də tanış olublar.

Görüşdə Özbəkistan Müsəlmanları İdarəsinin sədrinin birinci müavini Xomidjon İşmatbəkov, Özbəkistan Elmlər Akademiyasının Dövlət Tarixi Muzeyinin direktoru Jannat İsmailova, "Özbəkistan-24" telekanalının və Özbəkistan Milli İnformasiya Agentliyinin əməkdaşları, həmçinin AMEA-nın Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva və İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov da iştirak ediblər.

Ramiz Mehdiyev akademiya üzvlüyündən çıxarılıb

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclasında Ramiz Mehdiyevin Akademiya üzvlüyündən çıxarılması məsələsinə baxılıb.

Bildirilib ki, Milli Elmlər Akademiyasının 23 noyabr 2023-cü il tarixli Ümumi Yığıncağında təsdiq olunmuş Azərbaycan Milli Elmlər Akademiyası üzvlərinin seçkisi, hüquqları və vəzifələrinə dair Əsasnamənin 3.6.-cı bəndinə əsasən Akademiyanın üzvü ölkənin və Akademiyanın adına ləkə gətirən hərəkətlərə yol verdikdə, vəzifələrini yerinə yetirmədikdə onun AMEA üzvlüyündən çıxarılması məsələsi AMEA Rəyasət Heyətinin iclasında müzakirə edilərək, müvafiq qərar qəbul edilməklə AMEA Ümumi Yığıncağında təsdiq edilmək üçün təqdim olunur.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli AMEA Rəyasət Heyətinin iclasını açaraq Ramiz Mehdiyevin ölkənin adına ləkə gətirən və Akademiya üzvünün Nizamnamə ilə müəyyən olunmuş tələblərini pozan cinayət hərəkətlərinə yol verdiyini bildirib. Qeyd edilib ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə onun barəsində 14 il müddətinə azadlıqdan məhrumetmə haqqında qərar çıxarılıb. Müstəqil dövlətimizin konstitusiya quruluşunun dəyişdirilməsi üçün planlar quran Ramiz Mehdiyevin törətdiyi cinayət əməlləri müstəqil dövlətçiliyimizə xəyanətdir, Akademiyanın üzvü adına yaraşmayan, alim adını hörmətdən və



nüfuzdan salan bağışlanmaz hərəkətlərdir. Dövlətə xəyanət etmiş, məhkəmə tərəfindən ağır cəzaya məhkum edilmiş Ramiz Mehdiyev AMEA-nın üzvlüyündə qala bilməz.

Bütün bunlara görə Ramiz Mehdiyevin törətdiyi ölkə vətəndaşına və Akademiya üzvünə yaraşmayan cinayət əməlləri və Bakı Ağır Cinayətlər Məhkəməsinin çıxardığı 14 il müddətinə azadlıqdan məhrumetmə haqqındakı hökmü nəzərə alınaraq, onun AMEA üzvlüyündən çıxarılması məqsədəuyğun hesab edilib və AMEA Rəyasət Heyəti üzvlərinin müzakirəsinə verilib.

AMEA Rəyasət Heyətinin üzvləri müstəqil dövlətimizə xəyanət edən, konstitusiya quruluşunun dəyişdirilməsinə cəhd göstərən, vəzifə səlahiyyətlərindən sui-istifadə edərək qeyri-qanuni sərvətlər əldə edən Ramiz Mehdiyevin alim adına yaraşmayan cinayət əməllərini qətiyyətlə pisləyib, məhkəmə ilə sübut olunmuş həmin hərəkətlərin qəbuledilməz olduğunu nəzərə çatdırıb, ona akademiya üzvləri arasında yer olmadığını deyiblər.

Qeyd edilib ki, dövlət idarəçiliyində uzun bir yol keçmiş, dövlətin yaratdığı imkanlardan gen-bol istifadə etmiş Ramiz Mehdiyevin dövlətə xəyanət yolunu tutması bağışlanmazdır.

AMEA Rəyasət Heyətinin iclasında Ramiz Mehdiyevin Akademiya üzvlüyündən çıxarılması məsələsi səsə qoyularaq qəbul edilib.

Bildirilib ki, Azərbaycan Milli Elmlər Akademiyasına üzvlərin seçkisi, hüquqları və vəzifələrinə dair Əsasnamənin tələbinə görə AMEA Rəyasət Heyətinin bu qərarı AMEA Ümumi Yığıncağı tərəfindən təsdiq olunmalıdır.

Sonda AMEA Rəyasət Heyəti 30 oktyabr 2026-cı il tarixdə AMEA Ümumi Yığıncağının çağırılması haqqında qərar qəbul edib.

Azərbaycan Milli Elmlər Akademiyasının Pakistan və Pakistanın Azərbaycan nəşrləri

XII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində təqdimat

Bakı Ekspo Mərkəzində keçirilən XII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində "Azərbaycan Milli Elmlər Akademiyasının Pakistan və Pakistanın Azərbaycan nəşrləri"nin təqdimat mərasimi keçirilib.





Təqdimat mərasimində çıxış edən **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** Azərbaycan-Pakistan münasibətlərinin tarixi köklərindən, iki ölkə arasında elmi-mədəni əlaqələrin inkişafından və bu istiqamətdə Akademiyanın həyata keçirdiyi layihələrdən danışıb.

Akademik İsa Həbibbəyli qeyd edib ki, Azərbaycan ilə Pakistan arasında münasibətlərin qurulmasında Ümummilli Lider Heydər Əliyevin mühüm xidmətləri olub. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu əlaqələr qardaşlıq səviyyəsinə yüksəlib və hazırda əməkdaşlıq bütün sahələr üzrə uğurla davam etdirilir.

O, AMEA-da Pakistanın tarixinin, dilinin, ədəbiyyatının və mədəniyyətinin öyrənilməsi istiqamətində tədqiqatlar aparan elmi müəssisələrdən söz açaraq, Ədəbiyyat İnstitutunun Asiya xalqları ilə bağlı elmi tədqiqatlarının və Pakistan Mərkəzinin fəaliyyətinin bu baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, Mərkəzdə Azərbaycan və Pakistan tədqiqatçıları üçün hər iki ölkənin tarixi, dili və mədəniyyətinin araşdırılması istiqamətində geniş imkanlar yaradılıb.

AMEA prezidenti Akademiyanın Pakistanla elmi əməkdaşlığında Pakistan Ədəbiyyat Akademiyasının mühüm rolu olduğunu söyləyib. O, Akademiyanın rəhbəri, professor Nəcibə Arifin bu yaxınlarda AMEA-nın qonağı olduğunu, birgə tədbirlərdə iştirak etdiyini, tərəflər arasında müştərək nəşrlərin hazırlandığını və beynəlxalq konfransların təşkil olunduğunu diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli həmçinin Pakistanın bir sıra digər elmi-tədqiqiat müəssisəsi və universitetləri ilə də əməkdaşlıq əlaqələrinin inkişaf etdirildiyini bildirib.

O, Azərbaycan-Pakistan elmi-mədəni əlaqələrində görkəmli Azərbaycan şairi Nizami Gəncəvi irsinin təbliğinin xüsusi yer tutduğunu vurğulayıb. Qeyd edib ki, Nizaminin dünya ədəbiyyatındakı mövqeyinin və Azərbaycan şairi kimi tanıdılmasının əhəmiyyəti nəzərə alınaraq, Pakistanlı tərəfdaşlarla birgə bu istiqamətdə ardıcıl iş aparılır. Pakistanda urdu dilində Nizami Gəncəvi haqqında kitab nəşr olunub, şairin irsinin tanıdılması məqsədilə müxtəlif nəşrlər və elmi materiallar hazırlanıb.

AMEA rəhbəri, həmçinin Azərbaycan alimlərinin Pakistan ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığının tədqiqi və tərcüməsi istiqamətində əldə etdikləri nəticələrdən danışıb. O, Pakistanın milli şairi Məhəmməd İqbalın həyat və yaradıcılığına həsr olunmuş monoqrafiyanın nəşrini, eləcə də Pakistan şairi Sultan Bahunun əsərlərinin ilk dəfə Azərbaycan dilinə tərcümə edilərək çap olunmasını bu əməkdaşlığın mühüm uğurları kimi dəyərləndirib.

Sonda akademik İsa Həbibbəyli Azərbaycan-Pakistan əlaqələrinin inkişafına töhfə verən alimlərə, tədqiqatçılara və bütün həmkarlara təşəkkürünü bildirib, iki ölkə arasında qardaşlıq münasibətlərinin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Sonra **Pakistan Milli Kitab Fondunun direktoru Murad Ali Mohmand** çıxış edərək Azərbaycan və Pakistan arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin əhəmiyyətini vurğulayıb, xalqların bir-birinə daha da yaxınlaşmasında ədəbiyyatın, kitab nəşrinin və qarşılıqlı tərcümələrin mühüm rol oynadığını bildirib.

"Hər iki ölkənin tarixini, mədəniyyətini və ədəbi irsini əks etdirən nəşrlər qarşılıqlı anlaşmanın və mədəni əlaqələrin möhkəmlənməsinə xidmət edir", - deyə Fond direktoru bildirib.

Pakistan Milli Kitab Fondunun tarixindən danışan Murad Ali Mohmand qurumun əsas məqsədinin ölkədə kitab mədəniyyətinin və ədəbiyyatın inkişafına dəstək vermək, mütaliə ənənələrini təşviq etmək və nəşriyyat fəaliyyətini genişləndirmək olduğunu diqqətə çatdırıb.

O, Pakistan Milli Kitab Fondunda Azərbaycan tarixi, mədəniyyəti və ədəbiyyatını təbliğ edən xüsusi guşənin yaradılmasını iki ölkə arasında qardaşlıq münasibətlərinin təzahürü kimi dəyərləndirib. Bildirib ki, Azərbaycandan Pakistana səfər edən nümayəndə heyətləri fondun fəaliyyəti ilə tanış olur, Azərbaycan mədəniyyətinə və ədəbi irsinə həsr edilmiş nəşrlər isə bu əlaqələrin davamlılığını təmin edir.

Murad Ali Mohmand Azərbaycan və Pakistan arasında nəşriyyat sahəsində əməkdaşlığın, xüsusilə kitabların qarşılıqlı tərcüməsi və nəşrinin genişləndirilməsinin vacibliyini vurğulayıb. O, Azərbaycan ədəbiyyatı nümunələrinin urdu dilinə tərcüməsinin Pakistan oxucularının Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə daha yaxından tanış olmasına imkan verdiyini söyləyib.

Sonda direktor Azərbaycan-Pakistan münasibətlərinin gələcəkdə daha da möhkəmlənəcəyinə, kitab nəşri və tərcümə sahəsində əməkdaşlığın xalqlar arasında dostluq əlaqələrinin inkişafına xidmət edəcəyinə əminliyini ifadə edib.

Tədbirdə **AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, professor Eynulla Mədətli, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələr şöbəsinin müdiri, professor Bədirxan Əhmədov və həmin institutun baş elmi işçisi, filologiya elmləri doktoru Bəsirə Əzizəliyeva** çıxış edərək Azərbaycan-Pakistan ədəbi-mədəni əlaqələrinin inkişafında kitab nəşrlərinin və tərcümə fəaliyyətinin əhəmiyyətindən, iki xalqın tarixi və mədəni irsinin qarşılıqlı tanıdılmasında bu nəşrlərin rolundan bəhs ediblər.

Qeyd edək ki, təqdimat mərasimində AMEA tərəfindən Pakistanla bağlı 2021-2026-cı illərdə Azərbaycan dilində çap olunmuş "Sultan Bahu. Fəryad eylə ey könül ", "Məhəmməd İqbal. Seçilmiş əsərləri", "Pakistan: qısa tarixi-siyasi oçerklər" və Azərbaycanla bağlı Pakistanda urdu dilində nəşr edilmiş "Böyük Azərbaycan şairi Nizami Gəncəvi", "Cəlil Məmmədquluzadə", "Kitabi-Dədə Qorqud dastanı" və s. kimi əsərlər nümayiş olunub.

AMEA alimlərindən Pezeşkiana - Müraciət

Azərbaycan Milli Elmlər Akademiyası alimləri İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana müraciət ünvanlayıb.

Müraciətdə deyilir:

"İran Prezidentinin Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə görüşləri zamanı və Bakıya, Şuşaya, Xankəndiyə səfərləri dövründə Azərbaycan dilində apardığı söhbətlər dövlətlərarası münasibətlərin daha səmimi şəkildə qurulmasına təminat verir, bir daha İran dövlətinə hörmət qazandırır və qarşılıqlı etimadın möhkəmləndirilməsinə geniş imkan yaradır.

Bütün bunları nəzərə alaraq, İran İslam Respublikasında əhalinin böyük hissəsini təşkil edən Azərbaycan xalqının hüquqlarının gerçəkləşdirilməsi ilə əlaqədar Sizə müraciət etməyi zəruri və əhəmiyyətli hesab edirik.

Hörmətli Prezident!

İranda yaşayan köklü azərbaycanlılar orta və ali məktəblərdə ana dilində təhsil almaları, doğma dillərində mətbuatın və ədəbiyyatın olması yollarında səylər göstərir və təşəbbüslər irəli sürürlər. Lakin onların bu istiqamətdəki qanuni hüquqları indiyədək yerinə yetirilməmişdir. Bu da təbii olaraq İran azərbaycanlıları arasında ciddi narahatlığa səbəb olur. Çünki hazırda dünyada öz ana dilində yazıb-oxumaqdan məhrum olan çox az sayda xalqlar qalmışdır. Biz də hesab edirik ki, dünyanın başqa xalqları kimi, İranda yaşayan köklü azərbaycanlıların da öz ana dilində təhsil almaq hüququ təmin olunmalıdır.

Bu baxımdan Sizin İranda keçirilən tədbirlərdə, eyni zamanda, Azərbaycana səfəriniz zamanı Azərbaycan dilində də danışmağınız, böyük Azərbaycan və İran şairi Məhəmmədhüseyn Şəhriyarın məşhur "Heydərbabaya salam" poemasından bəzi parçaları əzbər söyləməyiniz, ibrətamiz misallar çəkməyiniz İranda olduğu kimi, Azərbaycan Respublikasında da xalq tərəfindən böyük rəğbətlə qarşılanır.

Eyni zamanda, İranın müxtəlif regionlarında ayrı-ayrı xalqların nümayəndələri ilə, o cümlədən azərbaycanlılarla onların öz ana dilində qurduğunuz ünsiyyət dövlət rəhbəri kimi Sizə bəslənilən hörmət və ehtiramın daha da qüvvətləndirilməsinə xidmət edir.

Hörmətli Prezident!

Son illərdə İran üçün yaşanan taleyüklü məqamlarda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin göstərdiyi dostluq və xeyirxah qonşuluq münasibətlərinə verdiyiniz ədalətli qiymət Sizin dövlət başçısı kimi obyektivliyinizin əyani göstəricisidir.

Bütün bu mətləbləri nəzərə almaqla, biz inanırıq ki, Siz İran azərbaycanlılarının ana dilində, doğma Azərbaycan dilində təhsil almaları üçün də dövlət səviyyəsində tədbirlər həyata keçirməklə onların çoxəsrlik arzularının yerinə yetirilməsini təmin edəcəksiniz.

Bundan başqa, İranda Azərbaycan dilində nəşr edilən qəzet və jurnalların çapına, Azərbaycan dilində elmi və bədii əsərlərin nəşr edilməsinə icazə verilməsi həlli zəruri olan məsələlərdəndir. Bunlar həm də İranda yaşayan Azərbaycan xalqının ölkənizin Konstitusiyası ilə müəyyən edilmiş hüquqlarının təmin edilməsi baxımından da əhəmiyyətli bir addım ola bilər.

Xalqların ana dilinə, milli ədəbiyyatına və mədəniyyətinə hörmətlə yanaşmaq, bu istiqamətdə əməli tədbirlər həyata keçirmək dövlət rəhbəri üçün mühüm tarixi vəzifədir. İnanırıq ki, Sizin prezidentliyiniz dövründə İranda yaşayan azərbaycanlıların ana dilində yazıb-oxumaq hüququ təmin ediləcəkdir.

Hörmətli Prezident!

Biz, bu məktubu imzalayan elm adamları Azərbaycan dili və ədəbiyyatına dair çoxsaylı dərsliklərin, tədqiqatların müəllifləri, lüğətlərin və ensiklopediyaların tərtibçiləriyik. Biz İranda Azərbaycan dilində tədris aparılacaq məktəblərə istənilən qədər dərslik və əlavə ədəbiyyat, bədii və elmi əsərlər, ensiklopediya və lüğətlər hədiyyə edə bilərik. Dövlətlərarası razılaşma əsasında İranın Azərbaycan dilində tədris təşkil olunacaq məktəblərində təməsnnasız dərs deməyə hazır olduğumuzu da yüksək diqqətinizə çatdırmağı özümüzə borc bilirik.

1. Nadir Məmmədli - AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor;
2. Mehman Həsənli - AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər və rəqəmsal inkişaf üzrə direktor müavini, filologiya elmləri doktoru;
3. Qəzənfər Paşayev - Əməkdar elm xadimi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, professor;
4. İmamverdi Həmidov - AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ortaq başlanğıc və intibah dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor;
5. İsmayıl Məmmədli - AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor;
6. Sərxan Xavəri - AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru;
7. İsmayıl Kazımov - AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türkologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor;
8. İlham Tahirov - AMEA Nəsimi adına Dilçilik İnstitutunun Nəzəri dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor;
9. Aygül Hacıyeva - AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türk əlyazmaları şöbəsinin müdiri, filologiya elmləri doktoru;
10. Fəridə Əzizova - AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor;
11. Nərgiz Hacıyeva - AMEA Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili və nitq mədəniyyəti şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor;
12. Akif İmanlı - filologiya elmləri doktoru, professor;
13. Əfzələddin Əsgərov - AMEA Folklor İnstitutunun Türk xalqlarının folkloru şöbəsinin müdiri, filologiya elmləri doktoru;
14. Leyla Məmmədova - AMEA Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent;
15. Xədicə Heydərova - AMEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dilinin tarixi şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent;
16. Arzu Məmmədxanlı - AMEA Humanitar Elmlər Bölməsinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru;
17. Zümrüd Mənsimova - AMEA İctimai Elmlər Bölməsinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent;
18. Aynur Mahmud - AMEA Rəyasət Heyəti Aparatının Həmkarlar Təşkilatının sədri, filologiya üzrə fəlsəfə doktoru;
19. Əsmər Əliyeva - AMEA Rəyasət Heyəti Aparatının şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru;
20. Səriyyə Gündoğdu - AMEA Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent."

Gənclərin vətənpərvərlik tərbiyəsində sosial-humanitar fəaliyyətin rolu

Gənclərin vətənpərvərlik tərbiyəsində sosial-humanitar yönümlü fəaliyyət fundamental xarakter daşıyır. Bu fəaliyyət gənclərdə vətəndaş kimliyini, milli mənəvi dəyərləri, onların mənsub olduqları ölkədə məsuliyyətli olmağı, sevgini formalaşdırır.



Sosial-humanitar fəaliyyət - cəmiyyətin sosial rifahının yüksəldilməsinə, insan hüquq və azadlıqlarının qorunmasına, mənəvi-mədəni dəyərlərin inkişafına və çətin həyat şəraitində olan insanlara dəstək göstərilməsinə yönəlmiş kompleks ictimai fəaliyyət sahəsidir. Bu fəaliyyətin sosial tərəfinə cəmiyyətdə qarşılaşdığımız sosial problemlərin həlli, insanların, xüsusilə də, əlilliyi olan şəxslərin aztəminatlı ailələrin, bir sözlə, qayğıya ehtiyacı olan təbəqələrin sosial müdafiəsi və həyat keyfiyyətinin yaxşılaşdırılması daxildir. Humanitar sahəyə isə insana, daha çox gənclərə, onların daxili aləminə, mənəviyyatına, hüquqlarına, təhsilinə və mədəni inkişafına verilən dəyərlər daxildir. Burada isə əsas məqsəd cəmiyyətin əsas aparıcı qüvvəsi olan gənclərin insansevərlik, vətənpərvərlik idealarını yaratmaq və inkişaf etdirməkdir. Hazırda gənclərdə düşünülmüş ictimai fəallıq daha çox sosial-humanitar sahədə artmağa başlayır. Bununla da onlarda əsas əxlaqi keyfiyyətlər, vətənpərvərlik hissləri, milli-mənəvi, estetik ideallar formalaşır, dünyəvi proseslərə maraq artır, ətraf mühiti daha dolğun şəkildə dərk etməyə fəallıq meyilləri güclənir və s. Sosial media resursları, KİV, eləcə də televiziya, radio verilişləri vasitəsilə gənclərin estetik tərbiyəsinin, estetik mədəniyyətinin inkişafına təsiri ilə onlarda cəmiyyətimizin vətənpərvərlik və sədaqətlilik, insansevərlik, intizamlılıq, aqillik, ədalətlilik, mərhəmət, xeyirxahlıq kimi ideya mənəvi və estetik dəyərlər anlamını formalaşdırır. Müasir dövrdə, süni intellektin tüğyan etdiyi belə bir vaxtda bu proses ənənəvi mühazirə çərçivəsini aşaraq, gənclərin real sosial təcrübəyə fəal qoşulmasını diktə edir. Əlbəttə ki, bu prosesə qoşulma ilk növbədə pedaqoji mühitlə əlaqədardır. Gənclərdə, yeniyetmələrdə vətənpərvərlik hisslərinin aşılanması, formalaşdırılması sosial-humanitar fəaliyyətin müxtəlif səpkili istiqamətləri üzrə həyata keçirilir:

Tarixi-mədəni maariflənmə

Burada qəhrəmanlıq salnamələri, xalqımızın əsrlər boyu formalaşmış tarixi, dövlətçilik ənənələri, xalqımızın milli-mənəvi dəyərlər sistemində mədəni irsimizin öyrənilməsi, gənclərdə hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi, eləcə də milli pedaqogikamızın inkişaf mərhələlərinin aşılanması məsələləri xüsusi yer tutur.

Könüllülük və sosial xidmət

Buraya daxildir veteranlara və yaşlı, ahıl insanlara qayğı: bu cəhət pedaqoqların gənclərdə böyük nəslə diqqət, qayğı, hörmət göstərmək kimi nəcib hisslərin aşılanmasını özündə ehtiva edir. Həmçinin, respublikada könüllülük hərəkatının vüsət almasına zəmin yaradır.

- Ekoloji tərbiyə və xeyirxahlıq, mərhəmət, şəfqət hisslərinin aşılanması.

Könüllülük - vətəndaşların öz sərbəst iradəsi ilə heç bir maddi qarşılıq (mənfəət) güdmədən cəmiyyətin və ətraf mühitin rifahına yönəlmiş işlərdə və ya xidmətlərdə təmənnasız iştirak etməkdir.

Bu sahə pedaqoqların üzərinə böyük vəzifələr qoyur. Belə ki, pedaqoqlar öz fəaliyyətində gənclərin, məktəbli uşaqların ekoloji tərbiyəsinə diqqətin artırılmasını tələb edir, onların respublikamızın ekologiyasına fikir verməsi, ətraf mühitin çirklənməsinə yol verməmələri, şəhər, kənd, qəsəbələrin yaşıllaşdırılmasına, həmçinin, şəxsi gigiyenasına və s. fikir vermələri diqqət çəkir.

Əsrlərlə xalqımızın xeyirxahlığı, mərhəmət və şəfqət hissləri ilə fərqlənməsi bir örnək kimi gənclərin bu sahədə dünya görüşlərinin formalaşmasına təsirinin pedaqoji prosesdə əhəmiyyətli dərəcədə yer alması da diqqət mərkəzindədir.

Vətəndaş fəallığının inkişafı

Aktual sosial, humanitar, sosial, hüquqi və siyasi mövzularda məqsədli müzakirələrin aparılması gənclərdə bu məsələlərə özlərinin vətəndaş mövqeyinin və tənqidi təfəkküründə düşüncəsinin formalaşmasına kömək edir. Gənclərin tənqidi təfəkküründə əsaslandırılmış və obyektiv nəticələr əldə etmək üçün informasiya, faktlar, dəlillər və fikirləri təhlil etmədə dərketmə qabiliyyətini, mülahizələr sistemini ehtiva edir. Gənclərin özlərinin gənclər təşkilatlarını yaratmaq, bu prosesdə onları maraqlandıran, narahat edən məsələlərin, problemlərin həllində öz iradələrini ortaya qoymaq, öz təşəbbüs və irəli sürdükləri səmərəli, effektiv təkliflərlə cəmiyyətin inkişaf etdirilməsinə töhfələr verməsi ön plana çəkilir.

İnformasiya və media fəallığı

Vətənpərvərliyin aşılanması: vətənpərvərlik - Vətənə, ana torpağa, doğma xalqa və onun millimənəvi dəyərlərinə olan dərin məhəbbət, emosional bağlılıq, həmçinin şəxsi maraqları vətənin mənafeyi naminə qurban verməyə hazırolma duyğusudur. Vətənpərvərlik anlayışının əsas xüsusiyyətləri aşağıdakılardır:

Mənəvi bağlılıq - Doğma torpağa, dilə, adət-ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik tarixinə və milli qürura əsaslanır.

Fədakarlıq - Təkcə ordu xidməti və ya hərbi qulluq ilə məhdudlaşmır. Vətən naminə çalışmaq, onu hər cür daxili və xarici təhlükələrdən qorumaq və hər bir uğuruna sevinmək deməkdir.

Tərbiyəcə formalaşma - İnsanın daxilindən gəlsə də əsasən ailədə başlayır, bağça, məktəb cəmiyyət tərəfindən uşaqlıq illərindən etibarən formalaşdırılır. Milli şüur gənc nəsildə bu hissin aşılanması vətəndaşlıq tərbiyəsinin əsasını təşkil edir.

İnformasiya texnologiyalarının yüsət aldığı bir zamanda gənclərin informasiya və media resurslarından istifadə edərək vətənpərvərlik mövzusunda sənədli video çarxların çəkilməsində, xalqımızın tarixi mədəniyyəti, incəsənəti, milli adət və ənənələri, tarixi şəxsiyyətləri, milli qəhrəmanları, şəhidlər və s. barədə esse, filmlərin hazırlanması, bədii əsərlərin yaradılması prosesində pedaqoqların düzgün istiqamət verməsi çox önəmlidir.

Bu prosesdə televiziyanın, televiziya işçilərinin, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında rolunu inkar etmək olmaz. Belə ki, pedaqoji tələblər nəzərə alınmaqla gənclərə ünvanlanmış televiziya verilişləri təlim-tərbiyə prosesi məsələlərinə uyğun şəkildə hazırlanmaqla ədəbi proqramlarda rəngkarlıq, heykəltəraşlıq, kino, teatr və s. təsvir olunan milli qəhrəmanların həyatı və şücaəti gənclərdə vətənpərvərlik hisslərinin artırılmasına olduqca güclü təsir göstərir. Həmçinin onlarda xeyir, mərhəmət, şəfqət hisslərinin güclənməsində böyük rol oynayır. Məhz gənclər bu verilişlərin qəhrəmanlarını özləri üçün ideal hesab edir. Bu da onlara vətənpərvərlik hisslərini aşılayır. Respublikamızın tanınmış, görkəmli mütəfəkkiri, ziyalısı professor pedaqoq Əjdər Ağayev estetik-mənəvi dəyərlərə uyğun kamil şəxsiyyət formalaşdırılmasından bəhs edərkən demişdir: "Heç kim kiçik yaşlı uşaqları digərlərinə layiq olmalarını, ağacları qırmağı, gözəlliyi pozmağı, öz şəxsi mövqeyini qəbul etdirməyi öyrətmir. Bütün bu işlər estetik tərbiyənin vacib qanuna uyğunluğu ilə əlaqədardır. Əgər insanı məharətlə, ağılla, inadla, tələbkarlıqla xeyirə öyrədirsənsə nəticə də xeyir olacaq. Əgər insanı şər əməllərə (çox nadir hallarda olur) öyrətsən nəticə də şər olacaq".

Əlbəttə ki, gənclərin diqqətini çəkən bu qəbil film, tamaşa, verilişlər daxili mənəvi təcrübələr daxil olan ədəbi dəyərlərin məğzi onların maraqlarını ətrafındakılara, həm yaşıdlarına və böyüklərə münasibətini formalaşdırır, gənclərin nəinki təhsil ocaqlarında, evdə, eləcə də, ümumilikdə, həyatda davranışlarının istiqamətləndirilməsinə zəmin yaradır.

Estetik sosial-humanitar problemlərə həsr olunan verilişlər gənclərdə sərbəst olaraq həyata, gözəlliyə öz baxışlarını formalaşdırmaq üçün köməklik göstərir. Eləcə də, xoşbəxtlik, xeyirxahlıq, nəciblik, xeyriyyəçilik kimi mənəvi dəyərləri, insanın həyatı boyu məsuliyyətli olması və seçim azadlığı məsələlərini gündəmə gətirir. Həmçinin, bu qəbil verilişlər gənclərin təhsilə marağını, onlarda hər şeylə maraqlanma, hər şeyi öyrənmə həvəsini artırır. Bununla yanaşı, vətənpərvərlik, əməksevərlik, təhsil müəssisələrinin ictimai həyatında fəallığın göstərilməsi həmçinin təhsil müəssisəsinə və ailəyə kömək liyin göstərməsi kimi mühüm və həyati məsələlər gündəmə gətirir.

Dezinformasiya ilə mübarizə Azərbaycanın hərbi və iqtisadi qüdrəti artdıqca dünya arenasında böyük nüfuza malik söz sahibi olduqca, zəfərqalibiyyət bayrağını Qarabağda asdıqdan sonra ölkəmiz respublikamızın bu uğurlarını həzm etməyən bəzi dairələr tərəfindən müəyyən hücumlara məruz qalır. Son günlər respublikamız haqqında ayrı-ayrı pozucu ünsürlər tərəfindən böhtan dolu informasiyaların, dezinformasiyaların yayılmasında müasir düşüncəli gənclərimizin hadisələrə obyektiv, kəskin mövqe nümayiş etdirmələri dövlətçiliyin yanında olmaları alqışa layiqdir. Bu, ilk növbədə onların vətənpərvərlik hisslərindən irəli gəlir. Rəqəmsal məkanda tariximizi, ədəbiyyatımızı, milli-mənəvi dəyərlərimizi, musiqimizi və s. təhrif etməyə, saxtalaşdırmağa çalışanlara qarşı mübarizədə gənclər arasında media savadlılığının inkişaf etdirilməsində heç şübhəsiz ki, fədakar pedaqoqların rolu əvəzsizdir.

Gənclərin vətənpərvərlik tərbiyəsində sosial-humanitar fəaliyyətin inkişafı ailə, məktəb, cəmiyyətlə sıx bağlıdır. Bu sahədə ailə ilə məktəbin vəhdəti xüsusi əhəmiyyət daşıyır. Çünki, gənclər ilk növbədə bu tərbiyəni ailədə, sonra isə təhsil ocaqlarında alırlar. Təhsil ocaqlarında pedaqoqların, müəllimlərin, tərbiyəçilərin düşünülmüş təsir mexanizmi bu sahədə ümdə rol oynayır. Müəllimlər uşaqlarda, gənclərdə vətənpərvərlik hisslərinin yaradılmasını ilk növbədə onlarda Azərbaycan dilinə, ədəbiyyata, milli-mənəvi dəyərlərimizə, adət və ənənələrimizə, çoxəsrlik tariximizə, dövlətə, dövlətçiliyimizə sevgi, hörmət aşılayır.

Ədiblərimizin müxtəlif əsərlərində əks olunan bədii obrazlar, uşaqlarda həmin bədii qəhrəmanlara marağı artırır. Elə 44 günlük II Qarabağ müharibəsində gənclərimizin döyüşə atılaraq qəhrəmanlıq göstərmələri, şəhid olmaları bədii qəhrəmanların onların təfəkküründə geniş yer alması olub desəm yəqin ki, yanılmaram.

Humanitar sahə gənclərin tərbiyəsində xüsusi yer tutur. Bu insansevərliyin, vətənpərvərliyin, mərhəmət və şəfqətin, xeyirxahlığın təzahür etməsi deməkdir. Müəllimlər daim uşaqları insansever, vətənpərvər olmağa səsləyir, onlarda mərhəmət və şəfqət hisslərinin aşılanması, insanlara sevgi və qayğını, etimadı, etibarı daha da artırır. Onların cəmiyyətlə qarşılıqlı əlaqəsinin konturunu cızır. Əlbəttə ki, burada sosial pedaqogikanın xüsusi rolu vardır.

Bir neçə kəlmə öz təcrübəmdən danışmaq zənnimcə yerinə düşər.

"Neçə müddətdir, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fiziki tərbiyə və incəsənət fakültəsində gələcəyin təsviri sənət, eləcə də hərbi çağırış və fiziki tərbiyə müəllimlərinə dərs deyirəm. Məmnuniyyət hissi ilə söyləyə bilərəm ki, əsasən rus bölməsində daim dərslərdə tələbələrin vətənpərvərlik hisslərinin artırılması üçün mütəmadi söhbətlər, diskussiyalar aparır, bu mövzuda sərbəst işlər hazırlamağı tapşırıram. Onlarda bu sahəyə marağın artmasını müsbət təsir göstərməsini müşahidə edəndə çox sevinirəm, bəxtiyar oluram. Yadımdadır, təsviri sənət qrupunda vətənpərvərlik mövzusunda ilk şəhid şairlər haqqında, xüsusən də M.Müşfiq haqqında xeyli söhbətlər apardıqdan bir neçə gün sonra həmin qrupun tələbəsi çəkdiyi M.Müşfiq portretinin eskizlərini mənə göstərdi. Bu əsərin yaranmasında mənim bu mövzuda apardığım söhbətlərin təsiri olduğunu bildirdi. Mən ona dəstək oldum. Əvvəlcə o, TV efirində bu portreti nümayiş etdirdi, sonralar isə həmin rəsm əsərini Müşfiq muzeyinə hədiyyə etdi. Bu əlbəttə ki, onun sözün əsl mənasında vətənpərvərlik hissindən irəli gəlirdi. Belə hallara çox rast gəlinir.

Uzun illərdir ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətində çalışıram. Məramı humanizm və xeyirxahlıq ənənələrinə əsaslanan Azərbaycan Qızıl Aypara Cəmiyyəti 1920-ci il martın 10-da Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti dövründə böyük dövlət xadimləri, general-leytenant Əliağa Şıxlinski və Fətəlixan Xoyskinin təşəbbüsü ilə təsis olunmuşdur. 106 illik şanlı inkişaf yolu keçmiş Azərbaycan Qızıl Aypara Cəmiyyətinin missiyası insanlarda humanizm, vətənpərvərlik, mərhəmət, şəfqət, xeyirxahlıq və xeyriyyəçilik, alicənablıq hisslərini aşılamaqla yanaşı, onların şəxsi gigiyena və ilk yardım vərdişlərini inkişaf etdirmək, insan ləyaqətini qorumaq və s. təşkil edir.

Cəmiyyət sülh dövründə əhali arasında səhiyyə maarifi işinin, qan donorluğunun, insan haqlarının, milli-mənəvi dəyərlərin, humanitar dəyərlərin təbliğində xüsusi rol oynayır. Eləcə də, fövqəladə hallar, təbii və texnogen fəlakətlər zamanı zərərçəkən, aztəminatlı insanlara humanitar, tibbi və sosial yardım göstərir.

Müharibə zamanı zərərçəkənlərə, əsirlikdən və girovluqdan qurtulmuş insanlara, qaçqın və məcburi köçkünlərə, miqrantlara, mühacirlərə zəruri yardımların göstərilməsini həyata keçirir.

Cəmiyyətin hazırda 350 000 üzvü vardır. Bunların əksəriyyətini isə məhz gənclər təşkil edir.

Qafar ƏSGƏRZADƏ
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Milli statistika sisteminin Qlobal Qiymətləndirilməsi çərçivəsində elmi ictimaiyyətin iştirakı ilə görüş

AMEA Rəyasət Heyətinin elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov milli statistika sisteminin inkişafı üzrə konkret təşəbbüslərlə çıxış edib



Oktyabrın 19-23-də Azərbaycanda milli statistika sisteminin Qlobal Qiymətləndirilməsi (Global Assessment) həyata keçirilib. BMT-nin Avropa İqtisadi Komissiyası, Avropa İttifaqının Statistika Bürosu və müstəqil ekspertlərin iştirakı ilə keçirilən qiymətləndirmənin əsas məqsədi milli statistika sisteminin mövcud vəziyyətini təhlil etmək, onun beynəlxalq standartlara və Avropa standartlarına uyğunluğunu qiymətləndirmək, inkişaf ehtiyaclarını müəyyənləşdirmək və gələcək inkişaf istiqamətləri üzrə tövsiyələr hazırlamaqdır.

Qiymətləndirmə çərçivəsində keçirilən görüşdə AMEA Rəyasət Heyətinin elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov da iştirak edib və milli statistika sisteminin inkişafı, rəsmi statistik məlumatların elmi tədqiqatlarda istifadəsinin genişləndirilməsi ilə bağlı təkliflərini səsləndirib.

Çıxışında rəsmi statistikanın yalnız dövlət idarəçiliyində qərarların qəbul edilməsi üçün deyil, həm də sosial-iqtisadi proseslərin dərindən öyrənilməsi, elmi tədqiqatların aparılması və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayan Coşqun Məmmədov Dövlət Statistika Komitəsinin milli statistik sistemin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində həyata keçirdiyi işləri yüksək qiymətləndirib.

O qeyd edib ki, milli statistika sisteminin inkişafında əsas prioritetlərdən biri rəsmi statistik məlumatların elmi ictimaiyyət üçün əlçatanlığının artırılmasıdır. Bunun üçün tədqiqatçıların zəruri məlumatları əldə etməsi daha da sadələşdirilməli, statistik məlumatların təfərrüatlılığı və əvvəlki illərin göstəriciləri ilə müqayisə imkanları genişləndirilməli, müxtəlif mənbələrdən əldə olunan məlumatların birgə təhlilini asanlaşdıran mexanizmlər yaradılmalıdır.

Çıxışda müəssisələrə aid fərdi məlumatların və kommersiya sirrinin məxfiliyinin qorunması şərtilə tədqiqatçılara daha ətraflı statistik məlumatlardan elmi məqsədlərlə istifadə etmək imkanlarının yaradılmasının vacibliyi də diqqətə çatdırılıb. Bildirilib ki, bu yanaşma sosial-iqtisadi proseslərin daha dərindən araşdırılmasına və elmi təhlillərin keyfiyyətinin yüksəldilməsinə töhfə verə bilər.

Coşqun Məmmədov Dövlət Statistika Komitəsi ilə universitetlər və elmi-tədqiqat müəssisələri arasında əməkdaşlığın gücləndirilməsini də mühüm istiqamət kimi qeyd edib. Onun fikrincə, statistik məlumatlara dair elmi ictimaiyyətin ehtiyacları mütəmadi öyrənilməli, yeni statistik göstəricilərin hazırlanması zamanı alim və tədqiqatçıların rəyləri nəzərə alınmalıdır.

Bu məqsədlə o, iki konkret təklif irəli sürüb:

Birinci təklif elmi tədqiqatçılar üçün statistik məlumatların əldə edilməsini asanlaşdıran vahid müraciət sisteminin yaradılmasıdır. Belə bir sistem tədqiqatçıların ehtiyac duyduqları məlumatlara daha rahat çıxışını təmin etməklə vaxt itkisinin azaldılmasına xidmət edə bilər.

İkinci təklif isə Dövlət Statistika Komitəsi ilə universitetlər və elmi-tədqiqat müəssisələri arasında müntəzəm dialoq platformasının yaradılmasıdır. Bu platforma vasitəsilə elmi ictimaiyyətin məlumat ehtiyaclarının müəyyənləşdirilməsi, statistik göstəricilərin təkmilləşdirilməsi ilə bağlı təkliflərin müzakirəsi və qarşılıqlı maraq doğuran istiqamətlər üzrə birgə tədqiqat layihələrinin həyata keçirilməsi mümkün ola bilər.

Çıxışının sonunda Coşqun Məmmədov vurğulayıb ki, milli statistika sisteminin keyfiyyəti yalnız toplanan məlumatların dəqiqliyi ilə deyil, həm də həmin məlumatların elmi tədqiqatlar, innovasiyalar və əsaslandırılmış qərarların qəbulu üçün nə dərəcədə əlçatan və yararlı olması ilə ölçülür. O, irəli sürülən təkliflərin həyata keçirilməsinin statistik məlumatların elmi tədqiqatlarda istifadəsini genişləndirəcəyinə və elmin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclası

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclası təşkil edilib. İclası AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq iştirakçıları elmi-təşkilati məsələlərlə tanış edib.



Akademik bildirib ki, bölmənin Rəqəmsallaşma və süni intellekt şöbəsinin müdiri Səkinə Cümşüdova "British Council" tərəfindən keçirilən "Researcher Connect Online" beynəlxalq təlim proqramında uğurla iştirak edərək sertifikat alıb. Bölmənin sədri Səkinə Cümşüdovanı təbrik edib və ona sertifikatı təqdim edib.

İclasda akademik İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsinin 25 illik yubileyinin keçirilməsinə hazırlıq haqqında danışıb, institut və şöbələrə lazımi tapşırıqlarını verib. Akademik AMEA Naxçıvan Bölməsində çalışan elmi işçilərin digər müəssisələrdə işləməsi, bölmədə 2027-ci ildə tender yolu ilə nəşri nəzərdə tutulan kitablar, eləcə də bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutuna işə qəbul haqqında fikirlərini diqqətə çatdırıb.

AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev və AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Zeynəb Quliyeva Bülövqaya və Xələc yaşayış yerlərində aparılan arxeoloji qazıntıların nəticələri barədə məruzə ediblər.

Professor Vəli Baxşəliyev qeyd edib ki, arxeoloji qazıntılar zamanı Bülövqayadan Erkən Eneolit dövrü üçün xarakterik sadə və boyalı keramika nümunələri, obsidian və çaxmaqdaşından hazırlanan əmək alətləri aşkarlanıb. Tədqiqatlar nəticəsində Uçan Ağılda yerli Neolit mədəniyyətin davamı, Naxçıvantəpədə Dalmatəpə mədəniyyətinin inkişafı, Bülövqayada isə Ubeyd mədəniyyətinin təsiri ilə yeni mədəniyyətin foramalaşdığı görünür. Bu yaşayış yerlərində Şərqi Anadolu obsidianının fərqli proporsiyalarda olması, obsidianın həmin mədəniyyətlər tərəfindən gətirildiyini göstərir.

Tarix elmləri doktoru Zeynəb Quliyeva bildirib ki, Şərur rayonunun II Xələc yaşayış yeri Antik və Erkən Orta əsrlərdə ictimai idarəçilik mərkəzlərindən olub. Aparılmış tədqiqatlar nəticəsində yaşayış yerindən erkən orta əsrlərə və son antik dövrə aid mədəni təbəqələr, zəngin keramika məmulatları, daş sütun altlıqları ilə müşayiət olunan ictimai tikili kompleksi üzə çıxarılıb. Bu dövrə aid iri ictimai tikili kompleksi daş sütun altlığı, əsas binadan və yardımçı tikililərdən ibarət olub. Binanın girişi və planı müəyyənləşdirilib. Kompleksin tam şəkildə üzə çıxarılması üçün gələcəkdə də tədqiqatlar davam etdiriləcək.

AMEA Naxçıvan Bölməsi Aparatının Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov bölməyə 2027-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə qəbul planının təsdiqi, bölmənin elmi tədqiqat müəssisələrində 2026-cı ilin yekunlarına dair hesabatların keçirilməsi, Əlyazmalar Fondunun əməkdaşının fəlsəfə doktoru dissertasiya mövzusunun və elmi rəhbərinin təsdiqi barədə məsələləri diqqətə çatdırıb.

İclas AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılın təqdimatında cari məsələlərin müzakirəsi ilə yekunlaşıb.

Marsda sirli strukturlar aşkar edilib

NASA-nın 14 ildir Marsın Geyl kraterində tədqiqat aparan "Curiosity" kosmik aparatı planetin geoloji keçmişinə işıq salacaq qeyri-adi bir kəşfə imza atıb.



Sulfatla zəngin təbəqələrə malik "Valle Grande" bölgəsindəki Şarp dağına dırmaşan komanda yerdə təxminən 1 santimetr enində dayaz və kiçik dəliklər qeydə alıb. Bu çuxurları əvvəlkilərdən fərqləndirən əsas cəhət ətraflarında eroziya nəticəsində aşınmış çınqıl və ya mineral yataqlarının tapılmamasıdır. Son dərəcə dayaz və geniş olan bu strukturlar qırmızı planetdə indiyə qədər məlum olan eroziya proseslərindən tamamilə fərqli bir modelin mövcudluğuna işarə edir.

